Xüsusi karantin rejiminin müddəti mayın 1-dək uzadılıb

Bu barədə Qərarı Baş nazir Əli Əsədov imzalayıb

Fevralın 24-də Azərbaycan Respublikasinin Nazirlər Kabineti xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə Qərar qəbul edib.

Bu barədə Qərarı Baş nazir Əli Əsədov imzalayıb. Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2022-ci il 1 may saat 06:00-dək uzadılıb.

"Rusiya hərbçiləri Çernobıl AES-i ələ keçiriblər"

Ukrayna Quru Qoşunları komandanı feysbuk səhifəsində məlumat verib

Rusiya hərbçiləri Çernobıl Atom Elektrik Stansiyasını ələ keçiriblər.

Bu barədə Ukrayna Silahlı Qüvvələrinin Quru Qoşunları komandanının müşaviri Alena Şevtsova feysbuk səhifəsində məlumat verib. "Ruslar Çernobıl stansiyasını ələ keçiriblər. Stansiyanın əməkdaşları girov götürülüb.

(səh.2)

❐ № 36 (5558), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 25 fevral 2022-ci il (cümə)

İşğal başladı

Qərb Rusiyanı dayandırmasa, Avropanın da üzərini qara buludlar alacaq

Rusiya Prezidenti Vladimir Putinin Ukraynaya hücum qərarından sonra rus ordusu və zirehli texnikası Donbass bölgəsinə girib. Nəticədə rus qoşunları ilə Ukrayna ordusu arasında genişmiqyaslı hərbi əməliyyatlar başlayıb.

Rusların dəstəyi ilə separatçılar Donbassda Qorodişe və Melovoe kəndlərini ələ keçiriblər. Xmelnitski, Dnepropetrovsk, Vinnitsk və Kiyev vilayətlərində Rusiyanın raket zərbələrindən sonra yanğınlar başlayıb. Lutsk şəhərindəki teleqüllə dağıdılıb. Ukrayna hərbçiləri isə Rusiyanın beş təyyarə və bir helikopterini vurublar. Ukrayna Baş Qərargahının məlumatına görə, Rusiya silahlı qüvvələrinə layiqli cavab verilib və düşmən yüzlərlə canlı qüvvəsini itirib.

(səh.4)

Rusiya XİN səhvini düzəltdi

Türkmənçay müqaviləsi ilə bağlı mətnə düzəliş edilib

Rusiya Xarici İşlər Nazirliyi (XİN) bir neçə gün əvvəl rəsmi sosial şəbəkə hesabında yerləşdirdiyi 1828-ci il tarixli "Türkmənçay" müqaviləsinin təhrif olunmuş mətnində düzəliş edib.

Bu barədə nazirliyin "Facebook" səhifəsinə istinadən məlumat verir. Qeyd edək ki, ötən gün Azərbaycan Xarici İşlər Nazirliyi bununla bağlı bəyanat yaymışdı. Bəyanatda deyilir: "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamənin imzalandığı bir gündə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi sosial şəbəkə hesabında 1828-ci il Türkmənçay Müqaviləsi ilə bağlı təhrif olunmuş məlumatın paylaşılması təəccüb və təəssüf doğurur. Vurğulamaq istərdik ki, sözügedən müqavilədə, ümumiyyətlə "Şərqi Ermənistan" sözünə istinad edilmir və əlbəttə, bu fakt Rusiya XİN-in Tarixi sənədlər departamentinə yaxşı bəlli olmalıdır. Bu təhrifin aradan qaldırılmasını vacib hesab edirik və Rusiya XİN-in rəsmi sosial şəbəkə səhifəsində sözügedən yalnış məlumata müvafiq düzəlişin ediləcəyini gözləyirik".

Britaniya Rusiyaya qarşı sərt sanksiyalar tətbiq etdi

Böyük Britaniyanın baş naziri Boris Conson cümə axşamı Rusiyaya qarşı bankları, prezident Vladimir Putinin ən yaxın çevrəsinin üzvlərinə qarşı sanksiyalar paketini açıqlayıb.

Trend Reuters agentliyinə istinadən xəbər verir ki, Britaniya hökuməti Rusiyanın ikinci ən böyük bankı olan və dövlətə məxsus VTB daxil olmaqla, bəzi böyük Rusiya banklarının aktivlərinin dondurulacağını və böyük rus şirkətlərinin Britaniyada maliyyələşdirməsini dayandıracağını söylədi.

✓ Xocavənddə kütləvi məzarlıq aşkarlandı

Məzarlığın I Qarabağ müharibəsi zamanı həmin kənddə girovluqda saxlanılan şəxslərə aid olduğu bildirilir

(səh.2)

✓ Özü geri çəkilir...

"Rusiya-Ukrayna savaşı Baydenin "əsəri"dir"

(səh.5)

✓ Efirə çıxıb tərifləməklə iş bitmir

Əhalinin böyük qismi hələ də icbari tibbi sığorta haqqında ətraflı bilgiyə malik deyil

(səh.6)

✓ Şəkər xəstələrinə dərman növbəsində zülm yaşadırlar

Halbuki, onları sistemli şəkildə zəng edib, çağırmaq olar

(səh.7)

"Ermənistanda aqressiv bir kəsim var ki..."

"Onlar bizimlə ünsiyyət qurmağı qəbul etmirlər"

Avronest Parlament Assambleyasının iclasında iştirak etmək üçün İrəvana səfər etmiş millət vəkillərimiz ölkəyə qayıdıb. Ermənistana səfər və görüşlərlə bağlı təəssüratını feysbuk səhifəsində paylaşan deputat Tahir Mirkişili səfərin çətin və mürəkkəb olduğunu söyləyib.

(səh.3)

Arif Qazıyev vəfat edib

Azərbaycan televiziya rejissoru, senari müəllifi Arif Qazıyev dünən 73 yaşında vəfat edib.

Bu barədə APA-ya mərhumun bacısı oğlu Mətləb Nəcəfov məlumat verib.

Qeyd edək ki, rejissor 1938-ci ildə anadan olub.

Arif Qazıyev "Şöhrət" ordeni ilə təltif olunub, 2017-ci ildə Azərbaycanın Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb.

Azərbaycanda yoluxma və ölüm sayında azalma var

Bir gündə 1 755 nəfər koronavirusa yoluxub, 23 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 755 yeni yoluxma faktı qeydə alınıb, 4 517 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 23 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 781 538 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 754 041 nəfər müalicə olunaraq sağalıb, 9 330 nəfər vəfat edib. 18 167 nəfər aktiv xəstə sayını təşkil edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 291, bu günə qədər isə ümumilikdə 6 522 155 test icra olunub.

Ankara Afinaya etiraz notası verib

Əziz Əlibəyli: "Uzun müddət bu cür situasiyaların şahidi olacağıq"

(səh.2)

"Belarus Ukrayna paytaxtını birbaşa təhlükəyə atır"

Turab Rzayev: "Bu, Belarusun öz ərazisini Kiyevə hücum üçün birbaşa Rusiyanın ixtiyarına verməsi deməkdir"

(səh.5)

"Müəyyən mərhələdən sonra Ermənistanla sülh müqaviləsi baş tutacaq"

Prezident İlham Əliyev: "Biz Qafqazda möhkəm sülhün bərqərar olması istiqamətində irəliləməliyik"

"Moskva Bəyannaməsini müxtəlif istiqamətlər üzrə konkret sazişlərlə möhkəmlədəcək silsilə sənədlər hazırlanma mərhələsindədir".

Bunu Prezident İlham Əliyev Rusiyanın aparıcı KİV-lərinin rəhbərləri ilə görüşdə deyib. Dövlət başçısı bildirib ki, bu, müqavilədən yüksəkdir: "Uzun illər boyu Rusiya ilə Azərbaycan arasında münasibətləri mən də, Prezident Putin də strateji tərəfdaşların münasibətləri kimi xarakterizə etmişik. Münasibətlərin indiki formatı ali formatdır. Yəni bundan yüksək format praktiki olaraq yoxdur. Dövlətlərarası münasibətlərdə bu, belə demək mümkünsə, aysberqin zirvəsidir. Mən tapşırıq vermişəm, Azərbaycanın Xarici İşlər Nazirliyi Bəyannamənin tam mətnini öz saytında yerləşdirib ki, hər kəs onunla tanış ola bilsin. Orada 43 bənd var. Əlbəttə, bütün bəndləri şərh etmək həddən artıq vaxt aparar. Bir də ki, buna ehtiyac yoxdur. Bəyannamə həyat fəaliyyətinin praktiki olaraq bütün sahələrini ehtiva edir.

"Ən azından hamının gözü qarşısında onların başlarını kəsərdilər"

Prezident Milli Məclisin deputatlarının Ermənistana səfərindən də danışıb: "Azərbaycan parlamentinin iki üzvü İrəvanda Avronestin sessiya iclasında olublar. Onların ora getməsi üçün biz Dövlət Təhlükəsizliyi Komitəsi və ya Nazirliyindən, - mən bilmirəm Ermənistanda necə adlandırılır, - bu adamların təhlükəsizliyi barədə zəmanət aldıq". Bəziləri biləndə ki, onlar Ermənistandadır, iğtişaşlar başlandı. İndi buna sosial şəbəkələrdə baxmaq olar, iğtişaşlar səngimir. Onlar bizim deputatlarımız üçün sadəcə, təhlükə doğurur. Bundan başqa, bu iclasın iştirakçıları üçün naharın nəzərdə tutulduğu yerdə, - orada isə təbii ki, təkcə bizim vətəndaşlar deyil, həm Avropa Parlamentinin üzvləri, həm Şərq Tərəfdaşlığı ölkələrindən üzvlər var, - restoranın sahibləri azərbaycanlılara xidmət göstərməkdən imtina ediblər. Onlar Ermənistanın baş nazirini bunda ittiham edirlər ki, guya o, azərbaycanlılar İrəvana gedəcək deyən Əliyevin fikri ilə oturub-durur. Bəli, mən bunu demişəm. Onu da demişəm ki, tanklarda yox, tədbirlərə gedəcəyik. Bu, ona görədir ki, onlar özləri razılaşdırılmadan, bütün təhlükəsizlik tədbirləri olmadan getsəydilər, onların üzərində hansı Linç mühakiməsinin qurulacağını və bütün bunların nə ilə qurtaracağını təsəvvür etmək çətin deyil. Mən əminəm ki, ən azından hamının gözü qarşısında onların başlarını kəsərdilər. Buna görə biz də tədbirlər görürük".

"Erməni tərəfinə kütləvi məzarlıqların yerini göstərmələri barədə müraciət etmişik, hələ cavab yoxdur"

Prezident deyib ki, İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilən ərazilərdə 1700-dən çox həlak olmuş erməni hərbi qulluqçusu tapılıb və onların hamısını qaytarmışıq: "Birinci Qarabağ müharibəsi dövründən 3890 azərbaycanlı, o cümlədən təqribən 200 uşaq indiyədək itkin düşmüş hesab edilir. Biz erməni tərəfinə kütləvi məzarlıqların yerini göstərmələri barədə müraciət etmişik, lakin hələ cavab yoxdur. Mən bilmirəm niyə. Yəqin onlar başa düşürlər ki, orada, sadəcə, hərbi cinayətlərin sübutları olacaq. Lakin bununla belə biz tələb edirik və yeri gəlmişkən, Avropa İttifaqı da bu məsələ ilə bağlı fikrini bildirib ki, kütləvi məzarlıqların yeri bizə təqdim edilsin. Çünki ehtimal çox böyükdür ki, hər şey Qarabağdadır, bizim işğaldan azad etdiyimiz ərazilərdədir".

"Biz müstəqil dövlət kimi ilk olaraq Türkiyə tərəfindən mənəvi dəstəyi hiss etdik"

Dövlət başçısı vurğulayıb ki, Türkiyə Azərbaycanı müstəqil dövlət kimi tanıyan ilk ölkə idi: "Biz müstəqil dövlət kimi ilk olaraq Türkiyə tərəfindən mənəvi dəstəyi hiss etdik. Son illər ərzində Prezident Ərdoğanın prezidentliyi dövründə və mənim dövrümdə, - bu dövrlər ümumilikdə daha çox üst-üstə düşür, - biz faydalı əməkdaşlıq fəaliyyətimizin əmsalını əhəmiyyətli şəkildə artırmışıq. Belə bir misal çəkim: Azərbaycan Türkiyə iqtisadiyyatına 19 milyard dollar, Türkiyə isə Azərbaycana 13 milyard dollar sərmayə qoyub. Podratçı kimi Türkiyə şirkətləri tərəfindən icra olunan çoxlu infrastruktur layihələri var. Təbii ki, mədəni yaxınlıq, dil yaxınlığı, etnik yaxınlıq - bunlar çox vacibdir. Bu, həmin bünövrədir ki, bizə bu münasibətləri misli görünməmiş səviyyəyə yüksəltməyə imkan verib".

"Biz Qafqazda möhkəm sülhün bərqərar olması istiqamətində irəliləməliyik"

Ölkə rəhbəri qeyd edib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında aparıcı rol Rusiyaya məxsusdur: "Rusiya Federasiyası ilə müttəfiqlik münasibətləri hərbi yardım göstərilməsi ilə bağlı məsələlərə birbaşa dəlalət edir. Mənim fikrimcə bu, tamamilə kifayətdir. Axı aydındır ki, KTMT-ni KTMT edən Rusiyanın orada olmasıdır. Əgər Rusiya olmasa, qurum heç kəsin yadına düşməz. Hər şey bundan irəli gəlir. Rusiya ilə Azərbaycan arasında hərbi-siyasi əməkdaşlığın səviyyəsinin artırılması istiqamətində bir addım artıq atılıb. Ermənistan istisna olmaqla KTMT-nin digər üzvləri ilə bizim çox etimadlı, yaxın, dostluq münasibətlərimiz var. Fikrimcə, İkinci Qarabağ müharibəsi başa çatandan sonra Ermənistanla münasibətlər də normallaşacaq. Hər halda biz Ermənistan ilə sülh müqaviləsi bağlamaq arzusunda olduğumuzu rəsmən bəyan etmişik. Yəqin ki, müəyyən mərhələdə bu, baş tutacaq. Lakin indiki geosiyasi reallıqlarda biz realist olmalı, əldə edilməsi ümkün olmayanı arzu etməməliyik. Biz Qafqazda möhkəm sülhün bərqərar olması istiqamətində irəliləməliyik.

"Azərbaycan iki böyük qonşusu ilə müttəfiqlik münasibətlərinə malikdir"

Prezident de-fakto Azərbaycan-Türkiyə-Rusiya əməkdaşlıq formatının formalaşdığını açıqlayıb: "Azərbaycan iki böyük ölkə, iki qonşusu ilə müttəfiqlik münasibətlərinə malikdir. Düşünürəm ki, başqa heç bir ölkə bununla öyünə bilməz. Mən hələ o barədə demirəm ki, NATO-ya üzv ölkə ilə və KTMT-nin de-fakto rəhbər ölkəsi ilə. Bu, əslində, nailiyyətdir və yəqin, heç kim üçün sirr deyil ki, artıq əməkdaşlığın üçtərəfli formatı da de-fakto formalaşır. O, hələ formalaşmayıb, prezidentlər də daxil olmaqla, hələ xarici işlər nazirlərinin görüşü baş tutmayıb, lakin o, artıq formalaşır. O, ümumi maraqlar, praqmatizm və oxşarlıq əsasında formalaşır. Bizim idarəetmə sisteminin oxşarlığı, tərəfdar olduğumuz dəyərlərin oxşarlığı heç kim üçün sirr deyil. Məsələn, bizə çox xoşdur ki, prezidentlər Ərdoğan və Putin arasında olduqca etibarlı münasibətlər mövcuddur. Onların hər ikisi bu barədə açıq şəkildə danışırlar. Beləliklə, mən fikirləşirəm ki, bu münasibətləri formalaşdıracağımız o gün artıq uzaqda deyil. Xüsusən ona görə ki, Azərbaycan Rusiyanın və Türkiyənin müttəfiqidir, burada necə deyərlər, artıq növbəti addım tələb olunur. Ancaq bu, bizim işimiz deyil, lakin biz öz tərəfimizdən iki ölkənin maraqlarının yaxınlaşdırılması üzərində həmişə işləmişik".

İsmayıl

Əlaqələr daha da inkişaf etdiriləcək

Prezident İlham Əliyev Dünya İqtisadi Forumunun Prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Dünya İqtisadi Forumunun Prezidenti Borge Brendenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dünya İqtisadi Forumunun Prezidenti Borge Brende ölkəmizə səfərləri zamanı Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Şəbəkəsinin Azərbaycan Mərkəzinin açılışında iştirak etmələrini məmnunluqla vurğuladı.

O, ölkəmizin bütün sahələrdə əldə etdiyi iqtisadi uğurların əhəmiyyətini qeyd etdi, Azərbaycan iqtisadiyyatının regionda vacib amilə çevrilməsinin önəmini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Dünya İqtisadi Forumu arasında əməkdaşlığın yüksək səviyyədə həyata keçirilməsindən razılığını ifadə etdi. Dövlətimizin başçısı Dünya İqtisadi Forumu ilə ölkəmiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu dedi.

Görüşdə əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Borge Brende Dünya İqtisadi Forumunun növbəti toplantısında iştirak etmək üçün Forumun təsisçisi və icraçı sədri Klaus Şvabın dəvətini Prezident İlham Əliyevə çatdırdı.

Boğazları bağlamaq Ankaranın maraqlarına ziddir

NATO mövqeyini bildirəndən sonra Türkiyə cavabını konkretləşdirə bilər

Ukraynanın Türkiyədəki səfiri Vasil Bodnar Ankaraya çağırış edib. Səfir Türkiyədən boğazları bağlamağı istəyib: "Türkiyə rəhbərliyinə səslənirəm. Çanaqqala boğazının bağlanmasını tələb edirik. Rusiyaya sanksiya tətbiq olunmasını istəyirik. Buradakı Rusiya səhmlərinin müsadirəsini tələb edirik".

Ukrayna rəsmisinin tələbini "Şərq"ə dəyərləndirən politoloq Turab Rzayev indiki məqamda Türkiyənin buna gedəcəyini qeyri-mümkün hesab edir. Analitikin sözlərinə görə, ilk növbədə Qərbin Rusiyaya qarşı hansı addım atacağı bilinməlidir: "Ən əsası isə NATO-nun mövqeyidir. Yalnız ondan sonra Türkiyə cavabını konkretləşdirə bilər. Ankaranın rəsmi mövqeyi aydındır və hesab edir ki, Rusiyanın Ukrayna ərazisinə müdaxiləsi yolverilməzdir, işğaldır və buna son verilməlidir. Amma Türkiyənin buna birbaşa müdaxiləsi, boğazları bağlaması, ölkəsindəki rus şirkətlərinin, banklarının fəaliyyətinə məhdudiyyət qoyması Rusiyaya müharibə elan etmək anlamına gələr. Bununla Türkiyə Rusiya ilə qarşı-qarşıya gəlmiş olar. Türkiyə ABŞ və Böyük Britaniyanın qəti mövqeyindən sonra öz iradəsini ortaya qoya bilər. Türkiyə regiondakı müharibənin milli maraqlarına uyğun olmadığını əsas gətirərək boğazlarını müvəqqəti bağlaya bilər. Ancaq Qərbin səssiz və hərəkətsiz qaldığı bir vaxtda Ankaranın hərəkətə keçməsi Türkiyə üçün məqsədəuyğun deyil".

İsmayıl Qocayev



"Rusiya hərbçiləri Çernobıl AES-i ələ keçiriblər"

Ukrayna Quru Qoşunları komandanı feysbuk səhifəsində məlumat verib

Rusiya hərbçiləri Çernobıl Atom Elektrik Stansiyasını ələ keçiriblər.

APA xəbər verir ki, bu barədə Ukrayna Silahlı Qüvvələrinin Quru Qoşunları komandanının müşaviri Alena Şevtsova feysbuk səhifəsində məlumat verib.

"Ruslar Çernobıl stansiyasını ələ keçiriblər. Stansiyanın əməkdaşları girov götürülüb. Bu, təkcə Ukraynanın deyil, həm də Avropanın təhlükəsizliyinə təhdidir", - deyə Şevtsova bildirib.

Ukrayna Prezidenti ofisinin rəhbərinin müavini Mixail Podolyak məlumatı təsdiqləyib.

"Rusiya hərbçiləri Çernobıl Atom Elektrik Stansiyasının ərazisini nəzarətə götürüb", - deyə o bildirib.

M.Podolyakın sözlərinə görə, hazırda stansiya təhlükədədir və təxribat riski var.

"Ağır döyüşdən sonra Çernobıl ərazisinə nəzarətimiz itdi. Keçmiş Çernobıl AES-in obyektlərinin vəziyyəti, saxlama və nüvə tullantılarının saxlanılması barədə məlumatsızıq. Hücumundan sonra Çernobıl AES-nin təhlükəsiz olduğunu demək mümkün deyil. Bu, Avropa üçün ən ciddi təhlükələrdən biridir. Ruslar yəqin ki, Çernobıl AES-də artıq təxribat xarakterli şeylər hazırlayırlar, ya da ondan istifadə edəcəklər", - deyə Mixail Podolyak əlavə edib.

Xocavənddə kütləvi məzarlıq aşkarlandı

Məzarlığın I Qarabağ müharibəsi zamanı həmin kənddə girovluqda saxlanılan şəxslərə aid olduğu bildirilir

Prezident İlham Əliyevin Əsir Və İtkin Düşmüş, Girov Götürülümüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyası qarşısında qoyduğu əsas vəzifələrdən biri müharibə vaxtı itkin düşmüş şəxslərin, sonrakı talenin müəyyənləşdirilməsi və bu haqda onların ailələrinə məlumat verilməsindən ibarətdir.

Bu istiqamətdə görülən işlər nəticəsində işğaldan azad olunan ərazilərdə, xüsusən Füzuli, Xocavənd, Ağdam, Şuşa şəhəri, Şuşa şəhərinin ətrafında kütləvi məzarlıqlar aşkarlanıb ki, belə məzarlıqlardan biri də Xocavənd rayonunun Edilli kəndi yaxınlığındadır.

Azərbaycan Respublikası Əsir Və İtkin Düşmüş, Girov Götürülümüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyasının işçi qrupunun üzvü Zaur İsmayılov bildirib ki, şahidlərin ifadələri əsasında aşkarlanan məzarlıqda 15-20 nəfərin qalıqları olma ehtimalı var. Dövlət komissiyasında artıq məlumatlar var, GPRS kordinatlar müəyyən olunub. Orada dəfn olunan insanların təxmini sayı da müəyyən olub.

"Görülmüş tədbirlər nəticəsində, kütləvi məzarlıqların birinin müəyyən olunması mümkün olub. Belə ki, burada saxlanılan əsir və girovların ifadələrinə görə, kəndin kənarında ekskavotor vasitəsi ilə quyu qazılmış və kamaz markalı yük maşının yük hissəsində meyitlər buraya gətirilib və burada vəhşicəsinə basdırılıb".

Xocavənd rayonunun Edilli kəndi yaxınlığındakı bu mzəzarlıqda basdırılan cəsədlər o vaxt əsirlikdə olanların iştirakı ilə mümkünləşib. Belə ki, burada da həmin o saxlanılan girovların əməyindən istifadə olunub. Qəbirlərin üstünü də onların özlərinə doldurdublar.

"Sonradan burada meyitlər aşkarlanıb. Hazırda burada mütəxəssilərdə çalışır. İlkin ehtimala görə burada 15-20 nəfərə yaxın şəxs dəfn olunub. Onların əsasən Füzuli rayonun Kürdmahmudlu kəndində gedən döyüş zamanı şəhid olmuş hərbiçilərin olması ehtimal olunur".

Araşdırmalar zamanı o da məlum olub ki, işğaldan azad olan Ağdam, Füzuli, Xocavənd və Şuşa şəhrinin ətraflarında belə məzarlıqlar mövcuddur.

Zaur İsmayılov bildirib ki, Füzuli rayonun Seyid Əhmədli kəndində keçmiş kolxoz idarəsi deyilən idarəinin meydançasında 10 nəfərdən çox azərbaycanlının kütləvi basdırıldığı haqda da məlumatlar var. Lakin həmin ərazi minalandığı üçün araşdırma aparmaq mümkün olmayıb.

"Füzuli rayonun Seyidəhmədli kəndində kalxoz idarəsi deyilən ərazidə meydançada bir neçə şəxsin basdırıldığı barədə məlumat var. Lakin indi orada mina təhlükəsi olduğuna görə, bizim hər hansı bir iş aparmağımız mümkün deyil. Yaxın gələcəkdə o məslələr öz həllin tapacaq. Ümumiyyətlə Beynəlxalq Qızıl Xaç Komitəsi ilə dövlət komissiyasının qarşılıqlı əməkdaşlıq sazişləri var. O, sazişlər çərçivəsində onlarla birgə biz bu işləri həyata keçiririk".

Xarici və yerli KİV nümayəndələri Xocavəndin Edilli kəndində aşkarlanan məzalığa baxış keçiriblər.

Məzarlıq haqqında məlumat verən Şəmsi Şıxəliyev bildirb ki, 1993-cü il avqustun 28-də ermənilər onu girov götürüb.

Həmin vaxt həkim işləyən və Füzulidə yaşayan ailəsinin yanına əşyaları çıxarmağa köməyə gəldiyi zaman erməni hərbiçilər tərəfindən girov götürülüb. 48 gün bu kənddə girov qalıb və həmin müddətdə Füzulinin kəndlərində gedən döyüşlərdə ölən Azərbaycan hərbiçilərinin "KamAz" markalı maşınla daşınıb gətirildiyini, bu kəndin ərazisində kütləvi şəkildə traktorla qazılan quyulara töküldüyünü qeyd edib.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupu Şəmsi Şıxəliyevin iddiaları əsasında buraya baxış keçirib və kütləvi insan skeletlərinin olduğu müəyyən olunub.

Moskva Bəyannaməsinin imzalanması bir zərurət idi

Sənəd Rusiya-Azərbaycan münasibətlərini tamamilə yeni mərhələyə qaldıracaq

"Hər şeydən əvvəl ona görə ki, bu müttəfiqlik yeni çoxqütblü dünya nizamında Azərbaycanı öz müttəfiqləri ilə birlikdə mümkün güc mərkəzlərindən birinə çevirəcək"

Moskva Bəyannaməsinin bütün müddəaları Azərbaycanın milli maraqlarına uyğundur. Hətta bu sənədi Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə və təhlükəsizliyinə növbəti dəstək kimi də qiymətləndirmək olar.

Bəyannamənin əsas fəlsəfəsi ölkələrin qarşılıqlı müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına hörmət nümayiş etdirməsinə dair öhdəlikdir. Bəyannamədə hər iki ölkənin müstəqil xarici siyasət yürütməsi qeyd olunur. Tərəflər bir-birinə qarşı yönəlmiş hərəkətlərdən çəkinməyə dair öhdəlik götürürlər. Sənəddə mühüm məqamlardan biri də üçtərəfli bəyanatlarda yer alan müddəaların həyata keçirilməsinin vacibliyinin vurğulanmasıdır. Son anlaşma 10 noyabr bəyannaməsinin yerinə yetirilməsi üçün yeni rıçaqlar verir və imkanlar yaradır. Bu isə Zəngəzur dəhlizinin açılması kimi öhdəliklərin reallaşmasına növbəti dəstəkdir. Bu baxımdan Rusiya ilə müttəfiqlik sahəsində qarşılıqlı əməkdaşlıq bəyannaməsinin imzalanması tarixi hadisədir. Onu da qeyd etmək lazımdır ki, Moskva Bəyannaməsi heç bir halda Azərbaycanın qardaş Türkiyə və eləcə də digər müttəfiq dövlətlər ilə münasibətlərində hər hansı dəyişiklik anlamına gəlmir. Ötən il iyun ayının 15-də Şuşada Azərbaycan və Türkiyə prezidentləri tərəfindən imzalanan Şuşa Bəyannaməsi artıq hər iki ölkənin parlamentləri tərəfindən ratifikasiya olunub. Bu sənəd iki qardaş ölkə arasındakı müttəfiqlik münasibətlərini daha da dərinləşdirib və ölkəmiz bununla da öz təhlükəsizliyi üçün əlavə zəmanət qazanıb. Bu gün Azərbaycan qalib ölkə kimi tam müstəqil siyasət yürüdür. Regionda və dünyada öz siyasi əlaqələrini daha da genişləndirir, gücləndirir. Çoxşaxəli xarici siyasət gündəliyinə uyğun olaraq ölkəmizin Avropa İttifaqı ilə münasibətləri də yüksələn xətlə inkişaf edir. Bu ilin mart ayında Bakıda Azərbaycan və Avropa İttifaqı arasında növbəti təhlükəsizlik dialoqu keçiriləcək. Bundan əlavə ölkəmiz bu ilin birinci yarısında Avropa İttifaqı ilə ikitərəfli saziş üzrə danışıqları bitirmək və sazişi imzalamaq niyyətindədir. Azərbaycanın NATO ilə münasibətləri də uğurla inkişaf edir. Bütün bunlar bir daha sübut edir ki, müstəqil, öz milli maraqlarına əsaslanan çoxşaxəli siyasət Azərbaycanın beynəlxalq arenada rolunun və nüfuzunun yüksəlməsinə imkan verir. Son dövrlər Azərbaycan və Rusiya arasındakı münasibətlər də dinamik şəkildə inkişaf edir. İki ölkə arasında münasibətlərin daha da inkişafına Prezident İlham Əliyev və Rusiya rəhbəri Vladimir Putin arasında mövcud olan etibarlı dostluq əlaqələri mühüm təsir göstərir.

Millət vəkili Hikmət Babaoğlu "Şərq"ə bildirib ki, hazırda dünyada heç bir ölkə milli təhlükəsizliyini təkbaşına təmin edə bilmir. Bu, hər şeydən əvvəl beynəlxalq münasibətlər sisteminin mürəkkəb daxili strukturu və yeni dünya nizamının formalaşması ilə bağlıdır. Deputatın sözlərinə görə, hər yenilik özlüyündə çoxsaylı maneələri dəf etmək və özünü təsdiq etdirə bilmək mərhələsindən keçməyə məhkumdur: "Ona görə də çoxqütblü dünya nizamına keçid ağrılı və uzunmüddətli adaptasiya tələb edən bir proses kimi qarşımıza çıxır. Bu uzunmüddətli və gərgin keçid kontekstində milli təhlükəsizliyi təmin etmək olduqca çətin vəzifədir. Xüsusilə tarixən mürəkkəb geostrateji rayon kimi xarakterizə edilən Cənubi Qafqazda bu vəzifənin öhdəsindən gəlmək strateji uzaqgörənlik, qətiyyətli siyasi iradə və mümkün geostrateji gedişləri əvvəlcədən dəqiq proqnozlaşdıraraq qərar qəbul etməyi tələb edir. Azərbaycan 30 ildən sonra öz ərazi bütövlüyünü bərpa edərək hələ də region ölkələrinin və bütövlükdə dünyanın adaptasiya olunmaqda çətinlik çəkdiyi, yaxud qəbul etmək istəmədiyi yeni reallıqlar yaradıb. Belə olan halda, əlbəttə, milli təhlükəsizlik problemləri daha da aktuallıq kəsb etməyə başlayıb. Ona görə də məhz indi dünyada baş verən qlobal geostrateji "zəlzələlər" və postsovet məkanının yenidən dizayn edilməsi kontekstində Azərbaycan etibarlı və nüfuzlu müttəfiqlərlə öz milli təhlükəsizliyini təmin etmək çağırışı ilə üzləşib. Birinci mərhələdə Azərbaycan qardaş Türkiyə ilə Şuşa Bəyannaməsini imzalamaqla Qərb istiqamətində bu məsələni etibarlı şəkildə həll edib. Milli təhlükəsizliyimizin ikinci strateji istiqaməti şimal istiqamətidir ki, bu istiqamətdə də qonşu Rusiya Federasiyası ilə müttəfiqlik əlaqələrinin qurulması tarixi zərurətə çevrilib. Əslində, hamıya aydındır ki, Cənubi Qafqazda Rusiya Federasiyasının iştirakı olmadan sülh və sabitlikdən danışmaq olmaz. Bu, geostrateji reallıqdır. Belə olan halda yalnız praqmatik və rasional siyasi qərarlar qəbul etməklə uzunmüddətli sülhə nail olmaq olar. Əslində, Azərbaycan Cənubi Qafqazın ən böyük və uzunmüddətli münaqişəsinə son qoymaqla sülh və əməkdaşlıq üçün yaxşı perspektivlər yaradıb. Bu prosesdə Rusiyanın oynadığı pozitiv rol da mühüm əhəmiyyət kəsb edib və nəticə etibarilə 10 noyabr 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli bəyannamədə sülhün təmin olunması ilə bağlı zəmanətçi funksiyasını üzərinə götürüb. Hazırda isə yeni yaranan qlobal siyasi reallıqlar bu istiqamətdə yeni addımlar atılmasını, sülh və təhlükəsizlik üçün yeni siyasi qərarların qəbul edilməsini şərtləndirib".

Deputat diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin Rusiya səfəri və səfər çərçivəsində Rusiya ilə müttəfiqlik haqqında bəyannamənin imzalanmasının nəzərdə tutulması olduqca aktualdır:

"Təqribən 40 maddədən ibarət olan və hərbi-siyasi və sosial iqtisadi, eyni zamanda, humanitar sahələri əhatə edəcək belə bir mühüm sənədin imzalanması Putinin də dediyi kimi, Rusiya-Azərbaycan münasibətlərini tamamilə yeni mərhələyə qaldıracaq. Bu mühüm mərhələni hərbi-siyasi və geostrateji kontekstdə yeni tarixi mərhələ kimi səciyyələndirmək olar. Hər şeydən əvvəl ona görə ki, bu müttəfiqlik yeni çoxqütblü dünya nizamında Azərbaycanı öz müttəfiqləri ilə birlikdə mümkün güc mərkəzlərindən birinə çevirəcək. Regional inteqrasiyanı dərinləşdirməklə uzunmüddətli sülhə gətirib çıxaracaq. Bu isə hazırkı mürəkkəb tarixi şəraitdə milli təhlükəsizliyimizi təminetmənin ən yaxşı yoludur".

İsmayıl Qocayev

Simonyanın sualına Mehriban Əliyeva müdaxilə edib

"Görmək, hiss etmək lazımdır ki, insanlar nə yaşayıblar"

Prezident İlham Əliyevin Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşündə erməni əsilli jurnalist Marqarita Simonyanın "ermənilərin Azərbaycana gələ biləcəkləri" haqda sualına Birinci vitse-prezident Mehriban xanım Əliyeva müdaxilə edib. Mehriban xanım Əliyeva Simonyanın bu mövzuda sualına cavab üçün Prezident İlham Əliyevdən razılıq alıb. Birinci vitse-prezident vurğulayıb ki, Moskvaya səfər ərəfəsində Azərbaycan televiziyasında bir sənədli film göstərilirdi:

"Film bir ahıl qadın haqqında idi. Onun 79 yaşı var, Ağdama, işğaldan azad edilmiş Ağdama gəlib, öz evini axtarır. Qadın həqiqətən çox qoca idi, çətinliklə yeriyirdi və 30 dəqiqə ərzində o, praktiki olaraq göz yaşları tökə-tökə öz emosiyaları barədə, təbii ki, heç nə tapmaması barədə danışmağa çalışırdı. O, hətta evinin xarabalığını da tapmadı. Bu, həqiqətən dəhşətli mənzərədir. İndi imkan yaranıb, mən sizin hamınızı dəvət etmək istəyirəm. Cənab Prezident kitab barədə də danışdı, lakin bunları öz gözünüzlə görmək lazımdır. Nə üçün indi bu barədə danışıram, - o qadın öz sərgüzəştini danışdı və paralel olaraq müharibədən əvvəl, birinci müharibədən əvvəl çəkilmiş kadrlar qalıb. O vaxt o qadının ailəsində toy olub, - onlar bu toyu həyətdə necə qeyd ediblər, gənc gəlini qəbul ediblər və indiki, bugünkü kadrlar. Onun gözlərindən sevinc yaşı axır. Nəhayət, bu torpağa qovuşub. O deyirdi: "Mən bu günü gördüm. Xoşbəxtəm ki, bu günə qədər yaşadım". Sonda həmin qadın bir ovuc torpağı götürüb öpür. İndi mən bunu ona görə danışıram ki, bunları çatdırmaq çətindir, yəqin bunu görmək, hiss etmək lazımdır ki, belə insanlar çoxdur. Birinci müharibə illərində bizdə 1 milyona yaxın qaçqın olub. Bu günü görmək arzusu ilə yaşayanların çoxu dünyasını dəyişib, sağ qalanlar üçün indi, əlbəttə, xoşbəxt günlərdir. Təbii ki, bu insanların ailələri var, tanışları var. Belə vəziyyətlər yarananda, həqiqətən Prezidentin vurğuladığı kimi, ilk növbədə, onları qorumaq lazımdır. Ona görə ki, çox vaxt biz böyük problemlərdən söz açanda ümumi şəkildə danışırıq və ayrıca insanı görmürük, - bu, bəlkə də təbiidir. Hər bir problemin arxasında yəqin ki, konkret insan dayanır, onun həyat tarixçəsi, emosiyaları dayanır və təəssüf ki, insanlar da, onların emosional fonu da fərqlidir". M.Əliyeva qeyd edib ki, Prezident Azərbaycan dövlətinin adından danışır: "Lakin dövlət insanların hansı emosiyalarla yaşadığını da bilir. Mən məktəbdə oxuyanda bizim sinif çoxmillətli idi - ermənilər, ruslar, yəhudilər, azərbaycanlılar... Hətta deyə bilmərəm ki, mənim sinfimdə azərbaycanlılar əksəriyyət təşkil edirdi, - yadınızdadırsa, o vaxt bir sinifdə 45 şagird olurdu. Biz hamımız dostluq edirdik, əlbir idik, heç bir pislik gözləmirdik. Hesab edirəm ki, bu məziyyət Azərbaycan xalqının ən yaxşı cəhətlərindən biridir və o, yox ola bilməz. Bu gün belə olması tamamilə izah edilə bilən dir və təəssüf ki, bunun baş verməsinin tarixi səbəbləri var".

İsmayıl

Ankara Afinaya etiraz notası verib

Əziz Əlibəyli: "Uzun müddət bu cür situasiyaların şahidi olacağıq"

Türkiyənin Xarici İşlər Nazirliyi Yunanıstana etiraz notası verib. Bu barədə Türkiyə mediası məlumat yayıb. Nazirlikdəki mənbələrə istinadən yayılan məlumatda bildirilib ki, sənəd Egey dənizində türkiyəli balıqçılara qarşı qeyri-mütənasib güc tətbiqinə etirazdır.

Qeyd edək ki, qardaş ölkə və rəsmi Afina arasındakı gərginlik tarix boyu olub. Ərazi və mədəniyyət üzərindəki münaqişə iki ölkənin hər cəhətdən ziddiyyət yaşamasına səbəb olur. Xüsusilə, Yunanıstan Türkiyəyə qarşı ərazi ilə bağlı müddəalardan əl çəkmir.

Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli Türkiyə və Yunanıstan arasında bu cür nota ilə qarşıdurmanın uzun müddət davam edəcəyini vurğulayıb:

"Egey dənizində, o cümlədən adalar bölgəsi və Aralıq dənizində konkret olaraq Yunanıstanın iddiaları var. Dəniz və sahil xətləri anlayışı mövcuddur. Türkiyənin, demək olar ki, Mersin limanına yaxın türk sahili boyunca ərazilərə də Yunanıstanın maraqları var. Arxasında da Qərb ölkələri dayanıb. Fransanın adını xüsusi çəkməliyik. Həm Aralıq dənizində, həm Şimali Afrikada və Yaxın Şərqdə rəsmi Ankaranın yürütdüyü anti-Fransa siyasətinə cavab məqsədi daşıyır. Bu baxımdan uzun müddət bu cür situasiyaların şahidi olacağıq.

Ekspert izah edib ki, Egey dənizi ətraf ölkələr üçün xüsusi mövqe daşıyır: "Bölgənin Yunanıstan və Türkiyənin yerləşdiyi ərazi, xüsusilə də, Kipr zonası beynəlxalq güclərin toqquşduğu bir ərazidir. Orada ABŞ-ın, Fransanın, Britaniyanın, yaxınlıqda, yəni Suriyada şimal qonşumuzun hərbi bazası var".

Ekspert notanın bir nəticə verməyəcəyini bildirib:

"Bu nota heç nəyi həll etməyəcək. Türkiyə həmişə hədə-qorxu gələcək. İki NATO üzvü yalnız bu cür revanşlarla kifayətlənməyi seçirlər. Sərt qarşılaşma mümkün deyil. Sadəcə, təhdidlə dənizdə güzəşt əldə edirlər".

Cəmilə ƏZİM

"Ermənistanda aqressiv bir kəsim var ki..."

"Onlar bizimlə ünsiyyət qurmağı qəbul etmirlər"

Tahir Mirkişili: "Bütün üstünlüklərdən istifadə edərək, Ermənistanla sülh şəraitində yaşamağa cəhd edirik"

Avronest Parlament Assambleyasının iclasında iştirak etmək üçün İrəvana səfər etmiş millət vəkillərimiz ölkəyə qayıdıb. Ermənistana səfər və görüşlərlə bağlı təəssüratını feysbuk səhifəsində paylaşan deputat Tahir Mirkişili səfərin çətin və mürəkkəb olduğunu söyləyib.

Parlament üzvünün sözlərinə görə, xeyli təhlükəsizlik və psixoloji məsələlər var idi. Amma bütün çətinliklərə baxmayaraq, qalib Azərbaycanı İrəvanda layiqincə təmsil etməyə çalışıblar: "Çalışdıq ki, şəhidlərimizin müqəddəs qanı hesabına, Müzəffər Ali Baş Komandanımızın dəmir yumruğu, xalqımızın iradəsi və dəyanəti hesabına əldə etdiyimiz qələbəyə zərər gətirəcək hər hansı hərəkətə yol verməyək. Parlament diplomatiyası çərçivəsində nə bacardıqsa onu da etdik. Əminəm ki, bizdən sonra İrəvana səfər edənlər bizdən daha yaxşısını edəcəklər. Ermənistan cəmiyyətinin müxtəlif nümayəndələri ilə, restoranda xidmətçilər, mühafizəçilər, deputatlar, spiker, baş nazir ilə müzakirələr aparmaq şansımız oldu. Etiraf etmək lazımdır ki, onlar üçün yeni reallıqları qəbul etmək çətindir. Amma onlar bu mərhələni aşmaq, Azərbaycanla sülh şəraitində yaşamaq, kommunikasiyaları açmaq, müharibənin bir də olmamasını istəyirlər. Hesab edirəm ki, cəmiyyətin böyük bir hissəsi belə düşünür".

T.Mirkişili əlavə edib ki, aqressiv bir kəsim də var ki, onlar azərbaycanlılarla ünsiyyət qurmağı belə qəbul etmirlər: "Bu kəsim həmişə olacaq. Biz bunu hər zaman nəzərə almalıyıq. Reallıq bundan ibarətdir ki, regionun ən güclü və ən aparıcı ölkəsiyik. Prezidentimiz dünya şöhrətli, güclü və ağıllı bir siyasətçidir. Dövlətimiz çox güclüdür. Cəmiyyətimiz kifayət qədər həmrəydir. Bütün bu üstünlüklərdən istifadə edərək, Ermənistanla sülh şəraitində yaşamağa cəhd edirik. Bunu onlar da doğru olaraq anlayırlar və pozitiv mesaj kimi qəbul edirlər. Bizim səfərimiz də bu fikrin onlarda, yəni sağlam kəsimdə formalaşmasında müsbət rol oynadı. Amma eyni zamanda, revanşist, millətçi qüvvələrə qarşı sərt cavab verməyə də həmişə hazır olmalıyıq. Güclü dövlət olaraq sərt cavabımız həm də Ermənistandakı sağlam qüvvələrin ümidinə çevriləcək".

Milli Məclisin üzvü vurğulayıb ki, onlar İrəvana Ali Baş Komandana, güclü dövlətimizə güvənərək gediblər: "Biz bu güvəni, dəstəyi hər an orda hiss etdik. Milli Məclisin rəhbəri Sahibə xanımın daim bizimlə təmasda olması, sanki onun bizimlə bir yerdə olması təəssüratı yaradırdı. Bütün bunlar isə bizə lazımi dərəcədə özümüzə əmin olmağa, dövlətimizin və xalqımızın marağını istənilən situasiyada qorumağa, ən çətin şəraitdə belə cəsarətlə həqiqətləri deməyə imkan yaradırdı. Bu dəstəyə görə öz dərin minnətdarlığımızı bildiririk! Eyni zamanda, media nümayəndələrinə, sosial şəbəkələrdə dəstək materialları və şərhləri yazan bütün hər kəsə təşəkkür edirik! Bu, bizim üçün qeyri-standart şəraitdə adi bir işgüzar səfər idi. Əminəm ki, bundan sonra belə səfərlər çox olacaq".

İsmayıl

İnanaq ki, Kreml imzasına hörmət edəcək

Moskva Bəyannaməsindən sonra sərhəddəki təxribatlar aradan qalxacaq



"Ermənilərin təxribatlarının qarşısı ciddi və qəti şəkildə alınmalıdır ki, yenidən buna cəhd etməsinlər".

Bunu "Şərq"ə açıqlamasında politoloq Azər Qasımov deyib. Analitik bildirib ki, erməni tərəfinin sərhəd bölgəsində və Qarabağda təxribatları özlərinə təsəlli verməkdən başqa bir şey deyil: "Ermənilər ümid edirlər ki, Azərbaycan-Ermənistan sərhədində vəziyyət gərginləşəcək və bundan yararlanacaqlar. Artıq bu köhnə metodlar keçmir. Azərbaycanın Rusiya ilə imzaladığı Moskva Bəyannaməsindən sonra bu kimi təxribatlar aradan qalxacaq. Nə qədər inanması çətin olsa da, Kreml bu məsələdə öz imzasına hörmət edəcək və təxribatçı qüvvələri Qarabağdan çıxaracaq".

A.Qasımova görə, Ukraynada baş verən hadisələr bir daha dünyada heç nəyin göründüyü kimi olmadığını göstərir: "Rusiya separatçıları tanıyır, onlara açıq və gizli dəstək verir. Ona görə də Rusiyanın, Qərbin təhrik və "dəstəyinə" arxayın olmamaq, kimlərinsə oyununa gəlməmək üçün öz maraqlarımız çərçivəsində hadisələrə qiymət verməliyik".

İsmayıl

İşğal başladı

Qərb Rusiyanı dayandırmasa, Avropanın da üzərini qara buludlar alacaq

Rusiya Prezidenti Vladimir Putinin Ukraynaya hücum qərarından sonra rus ordusu və zirehli texnikası Donbass bölgəsinə girib. Nəticədə rus qoşunları ilə Ukrayna ordusu arasında genişmiqyaslı hərbi əməliyyatlar başlayıb.

Rusların dəstəyi ilə separatçılar Donbassda Qorodişe və Melovoe kəndlərini ələ keçiriblər. Xmelnitski, Dnepropetrovsk, Vinnitsk və Kiyev vilayətlərində Rusiyanın raket zərbələrindən sonra yanğınlar başlayıb. Lutsk şəhərindəki teleqüllə dağıdılıb. Ukrayna hərbçiləri isə Rusiyanın beş təyyarə və bir helikopterini vurublar. Ukrayna Baş Qərargahının məlumatına görə, Rusiya silahlı qüvvələrinə layiqli cavab verilib və düşmən yüzlərlə canlı qüvvəsini itirib.

Ukrayna ordusu 40-dan çox hərbçisini itirdiyini təsdiqləyib

Ukrayna ordusu 40 hərbçisini itirib, dinc sakinlər arasında 10-a qədər ölən var. Zelenskinin ofisinin rəhbərinin müşaviri Oleksiy Arestoviç Xarkov şəhəri yaxınlığında şiddətli döyüşlərin getdiyini, Ukrayna Ordusunun Rusiyanın tank bölmələrinin hücumunu dəf etdiyini söyləyib: "Rusiyanın hücumu nəticəsində 3 sərhədçi, 7 hərbçi və iki mülki vətəndaş həlak olub. Heç nəyə baxmayaraq, sərhədçilər işğalçı ilə döyüşür". Bildirilib ki, Xerson vilayətinin Kopani və İvano Xersonsk yaşayış məntəqələrində döyüşlər gedir.

"Kiyev qanadlı raketlərlə vurulub"

Ukraynanın paytaxtı Kiyev şəhərindəki strateji obyektlərə qanadlı və ballistik raketlər atılıb. Daxili işlər nazirinin müşaviri Anton Geraşenko deyib ki, Kiyevlə yanaşı, Xarkova da raketlər atılıb: "Kiyev və Xarkovdakı hərbi mərkəzə raket zərbələri oldu. Sərhəddə artilleriya atışları gedir. Bu gündən dünyada yeni geosiyasi reallıq yaranıdı. Ya Ukrayna, ya da dünya yeni Hitleri dayandıracaq". Kiyevin Borispol hava limanı yaxınlığında partlayış səsləri də eşidilib. Borispol şəhərinin meri Vladimir Borisenko bildirib ki, Kiyev yaxınlığındakı partlayışlar səsləri hava hücumundan müdafiə vasitələrinin PUA-lara qarşı zərbələri idi.

"Rusiya Hitlerin etdiyini təkrarlayır"

Ukrayna prezidenti Vladimir Zelenski deyib ki, Rusiya II Dünya Müharibəsi illərində nasist Almaniyasının etdiyi kimi səhər saatlarında xaincəsinə hücum edib: "Bu gün ölkələrimiz dünya tarixinin müxtəlif tərəflərindədir. Rusiya şər yoluna qədəm qoyub, lakin Ukrayna özünü müdafiə edir və Moskvanın nə düşünməsindən asılı olmayaraq, azadlığından əl çəkməyəcək". Prezidentin tapşırığı ilə Ukrayna Xarici İşlər Nazirliyi beynəlxalq hüquq normalarına uyğun olaraq diplomatik münasibətlərin kəsilməsi proseduruna başlayıb. Rusiyanın Ukraynaya qarşı silahlı təcavüz aktına, Ukrayna dövlətini məhv etmək üçün Rusiya qoşunlarının yeridilməsinə, Ukrayna ərazisinin güc yolu ilə ələ keçirilməsinə cavab olaraq belə bir addım atılıb.

Zelenski əhalini panikaya düşməməyə çağırıb

Ukraynanın dövlət başçısı Zelenski xalqa müraciətində deyib ki, Vladimir Putin Ukraynanı məhv etmək istəyir. O, bütün demokratik dünya ilə müharibəyə başlayıb: "Ukrayna ordusu layiqli mübarizə aparır. Biz təkcə bombalarla deyil, həm də saxta xəbərlərlə hücuma məruz qalırıq. Odur ki, rəsmi mənbələrə inanmaq lazımdır". O, yerli əhalini panikaya düşməməyə çağırıb: "Bizim həmrəyliyə ehtiyacımız var. Ukraynalılar güclüdürlər, cəsarətlidirlər. Biz bunu bir neçə dəfə sübut etmişik".

"AntiPutin koalisiyası yaradırıq..."

Ukrayna Prezidenti Vladimir Zelenski dünya liderlərini Rusiya Federasiyasının Ukraynaya genişmiqyaslı hücumu ilə əlaqədar Vladimir Putinə qarşı koalisiya yaratmağa çağırıb. O, ABŞ, Almaniya, Böyük Britaniya, Polşa və Avropa İttifaqı liderlərindən Putini dərhal dayandırmağı xahiş edib: "Putini dərhal Ukrayna və dünyaya qarşı müharibəni dayandırmağa çağırıram. AntiPutin koalisiyası yaradırıq. Dərhal sanksiyalar tətbiq olunsun, Ukraynaya maliyyə və müdafiə dəstəyi verilsin. Dünya Rusiyanı sülhə vadar etməlidir".

Avropa İttifaqı Rusiyanın Ukraynaya qarşı hücumunu sərt şəkildə pisləyib

Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Şarl Mişel Rusiyanın Ukraynaya qarşı görünməmiş hərbi təcavüzünü ən kəskin şəkildə pisləyib: "Rusiya özünün əsassız hərbi hərəkətləri ilə beynəlxalq hüququ kobud şəkildə pozur, Avropada sabitliyə və qlobal təhlükəsizliyə zərbə vurur. Biz insan tələfatına və onların çəkdikləri ağrılara görə təəssüf edirik. Rusiyanı hərbi əməliyyatları dərhal dayandırmağa, ordusunu Ukraynadan çıxarmağa və Ukraynanın ərazi bütövlüyünə, suverenliyinə və müstəqilliyinə tam hörmət etməyə çağırırıq. XXI əsrdə bu cür güc və məcburiyyətdən istifadənin yeri yoxdur. Aİ bu misilsiz böhranla üzləşən Ukrayna və onun xalqının yanında qətiyyətlə dayanır". Birgə bəyanatda qeyd olunub ki, Aİ liderləri görüşəcək: "Avropa Şurasının prezidenti Mişel böhranı və əlavə məhdudlaşdırıcı tədbirləri müzakirə etmək üçün təcili olaraq Avropa Şurasının fövqəladə iclasını çağırıb".

Boris Conson Ukrayna xalqının müqavimət göstərəcəyinə ümid edir

Böyük Britaniyanın baş naziri Boris Conson və Ukrayna Prezidenti Vladimir Zelenski arasında telefon danışığı olub. Telefon danışığı zamanı Boris Conson Zelenskiyə Ukraynada baş verən hadisələrdən dəhşətə gəldiyini bildirib. O, Qərbin Prezident Putinin Ukrayna xalqına qarşı başlatdığı müharibəni dayanıb izləməyəcəyini vurğulayıb. Conson Ukrayna xalqının müqavimət göstərə biləcəyinə ümid etdiyini deyib.

"Rusiyanı bu hərəkatı tez bir zamanda dayandırmağa çağırırıq"

Türkiyə Xarici İşlər Nazirliyi Rusiyanı hücumu tez zamanda dayandırmağa çağırıb: "Rusiyanın Ukraynaya hərbi müdaxiləsini qəbuledilməz hesab edirik. Bu hücum Minsk razılaşmasının pozulması ilə yanaşı, həm də beynəlxalq hüquqa ziddir. Eyni zamanda hücum region və dünya üçün ciddi təhdiddir. Ölkələrin ərazi bütövlüyünə və suverenliyinə hörmət edən Türkiyə sərhədlərin güc yolu ilə dəyişdirilməsinin əleyhinədir. Ukraynanın suverenliyinə, ərazi bütövlüyünə dəstəyimiz davam edir".

"Müttəfiqlərimizlə birlikdə Rusiyaya cavab verəcəyik"

ABŞ Prezidenti Co Bayden bəyan edib ki, Rusiyanın Ukraynaya silahlı hücumunun dayandırılması məsələsi "Böyük yeddilik" ölkələri liderlərinin fövqəladə toplantısında müzakirə olunacaq. O bildirib ki, görüşdə Rusiyaya tətbiq ediləcək sanksiyalar paketi nəzərdən keçiriləcək. Ağ Ev rəhbərinin sözlərinə görə, NATO-nun müttəfiqinə qarşı aqressiyaya cavab addımları razılaşdırılacaq. Bayden vurğulayıb ki, rəsmi Moskva adıçəkilən dövlətə hərbi müdaxilə etdiyi üçün beynəlxalq ictimaiyyət tərəfindən məsuliyyətə cəlb ediləcək: "Baş verənlərə görə məsuliyyəti bilavasitə Rusiya daşıyır. Bütün dünya Ukrayna dövləti və xalqı üçün dualar edir. Müttəfiqlərimizlə birlikdə Rusiyanın addımlarına cavab veriləcək".

"Fransa Ukraynaya dəstək göstərməkdə davam edəcək"

Fransa Prezidenti Emmanuel Makron rəsmi Parisin Ukraynaya, onun suverenliyinə və ərazi bütövlüyünə tam dəstəyini ifadə edib: "Bu gün bir daha Ukrayna xalqına, Prezident Zelenskiyə dəstəyimizi, Ukraynanın suverenliyinə və ərazi bütövlüyünə tərəfdar olduğumuzu bəyan edirəm. Fransa iqtisadi və maliyyə sahələrində, o cümlədən müdafiə avadanlığı sahəsində öz dəstəyini nümayiş etdirməkdə davam edəcək".

BMT-nin Baş katibi Antonio Qutterreş Rusiya Prezidenti Vladimir Putinə çağırış edib. Bildirib ki, Putin insanlıq naminə qoşunları Rusiyaya qaytarmalıdır: "Bu münaqişə indi dayandırılmalıdır".

"Rusiyada etirazlar başlayıb..."

Rusiyanın bir sıra şəhərlərində müharibə əleyhinə etirazlar baş qaldırıb. Yekaterinburq və Novosibirsk şəhərlərində Ukraynada aparılan hərbi əməliyyatlara etiraz olaraq yüzlərlə fəal yürüş keçiriblər. Yekaterinburqda hüquq-mühafizə orqanlarına müqavimət göstərən iki gənc qız saxlanılıb. Paytaxt Moskvada Puşkin meydanında bir qrup fəal nəqliyyatın hərəkətinə mane olaraq müharibə əleyhinə şüarlar səsləndiriblər. Rusiyanın qərb qapısı Sankt-Peterburqda da Ukraynadakı hərbi əməliyyatlara etiraz olaraq insanlar küçələrə axışıblar. Üç nəfər saxlanılıb.

"Düşünmək olar ki, Moskva açıq tədbirlərlə yanaşı, gizli tədbirlərə də əl atır"

Siyasi şərhçi Aqşin Kərimov deyib ki, Kreml işğal planını işə saldı. Onun sözlərinə görə, vəziyyətin dramatikləşməsi Avropa üçün təhdidləri praktiki müstəviyə çəkir: "Ukraynanın Rusiya və Belarus tərəfindən mühasirəyə alınması Polşa, Rumıniya, Slovakiya, Macarıstan və Moldovaya, oradan isə sıçrayış edərək digər ölkələrə təhlükə gətirir. Rusiya Kalininqradda da və ilhaq etdiyi Krımda da strateji silahlar yerləşdirib, əgər NATO proseslərə hərbi tədbirlərlə qarşılıq verəcəksə, o zaman Avropanın başı üzərində qara dumanlar qatılaşacaq. Qısası, bu müharibənin təsirləri Ukraynadan da qat-qat uzaqlara yayılır və Rusiyanın da, NATO-nun da davranışlarında əlavə istiqamətlər yaradır. NATO-nun 1997-ci ildən bu yana sərhədlərini genişləndirməsi və Ukraynanı da öz çətiri altında görmək istəməsi Rusiyanı hiddətləndirir. Rusiya burnunun dibində NATO-nu görmək istəmədiyindən bütün cəbhələrdəki təzyiqi artırır və Ukraynanı tükəndirməyə çalışır. Tükəndirici tezislərə uyğun olan hərbi əməliyyatlar Avropada təhlükəsizlik nizamının təməllərini sarsıdır. Avropa üçün "qiyamət günü" yaxınlaşır və Avropa dövlətləri də özünümüdafiə reflekslərini işə salmaq zərurətini dərk edirlər. Bu isə tərəflər üçün barıt qoxulu senariləri prioritetlərə daşıyır. Avropanın Rusiya ilə soyuq müharibə tərzində qarşıdurma çağırışları ilə üz-üzə qalması bəşəri faciələr üçün də pəncərə açır. Düşünmək olar ki, Moskva açıq tədbirlərlə yanaşı, gizli tədbirlərə də əl atır. Rusiyanın Ukraynanı daxildən sarsıtmağa hazırlaşan geniş məxfi agentlər şəbəkəsi qurması da şübhə doğurmur. Əgər müharibənin miqyası genişlənməzsə, bunun özü də hərb variantlarını gündəmdən çıxarmayacaq".

İsmayıl Qocayev

Qazın bahalaşması sadəcə Rusiya-Ukrayna müharibəsi ilə bağlı deyil

Yaranmış situasiya Azərbaycana əlavə dividendlər verə bilər

"Belə məqamda əsas şərt odur ki, Azərbaycan kimi dövlətlər iqtisadi və ərzaq təhlükəsizliyini təmin etmək üçün ciddi hazırlıqlara başlamalıdır. Baş verə biləcək hansısa forsmajor qiymət artımlarına və məhsul çatışmazlığına qarşı sığortalanmalıyıq"

Avropada qazın qiyməti 35 faiz bahalaşıb. Min kubmetr qaz fyuçersinin qiyməti 1400 dollara yüksəlib. İki gün əvvəl Avropada min kubmetr qazın qiyməti 961 dollar təşkil edirdi.

Ekspertlərin fikrincə, kəskin bahalaşma Ukrayna ərazisinin Rusiya və Belarusun hücumlarına məruz qalması fonunda baş verir. Qərb-Rusiya gərginliyi fonunda qazın qiymətinin bahalaşmaqda davam edəcəyi gözlənilir. **İqtisadçı Pərviz Heydərov "Şərq"ə bildirib ki, Rusiyanın Ukraynaya hərbi müdaxiləsi qlobal iqtisadiyyatda müəyyən fəsadlara gətirib çıxaracaq. Nəinki Avropada qazın bahalaşması, həmçinin bir sıra sahələrdə ciddi, dərin problemlərin ortaya çıxmasına zəmin yaradacaq:** "Amma real situasiya elədir ki, konkret proqnoz vermək çox çətindir. Hadisələrin gedişatının nəyə gətirib çıxaracağı, hansı tempdə inkişaf edəcəyi məlum deyil. Belə məqamda əsas şərt odur ki, Azərbaycan kimi dövlətlər iqtisadi və ərzaq təhlükəsizliyini təmin etmək üçün ciddi hazırlıqlara başlamalıdır. Baş verə biləcək hansısa forsmajor qiymət artımlarına və məhsul çatışmazlığına qarşı sığortalanmalıyıq. İndiyə qədər ehtiyatlı siyasət yeritmişik, bundan sonrakı proseslərə də hazırlıqlı olmalıyıq. Avropada enerji qiymətlərinin bahalaşmasının səbəbi sadəcə Rusiya-Ukrayna müharibəsi deyil. Qazın bahalaşması əvvəldən də müşahidə olunurdu. Təbii ki, son günlər yaşanan real hadisələr fonunda bu artım daha kəskin xarakter alacaq".

P.Heydərov vurğulayıb ki, Azərbaycan enerji resurslarının idxalı ilə məşğuldur: "Avropaya qaz idxal edən ölkələrdənik. Bu mənada Azərbaycan qazının dəyəri və qiyməti yaranmış situasiyada bizə əlavə dividend verə bilər. Ancaq hələlik gedişatı izləmək lazımdır. Moskva Bəyannaməsinin müvafiq bəndləri Azərbaycan-Rusiya arasındakı iqtisadi əməkdaşlığın kənar təsirlərə məruz qalmayacağını diktə edir. Bu da Azərbaycanın münaqişə tərəflərindən, o cümlədən Avropa iqtisadiyyatındakı tələtümlərdən daha az ziyanla çıxacağı anlamına gəlir".

İsmayıl Qocayev

Qərbin danışıqlar masası Ukraynanı qırğına verdi

ABŞ, Qərb cəbhəsi Rusiyanın Ukraynaya girməsində maraqlı olduğu görünür

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında fevralın 23-də telefon danışığı baş tutub. Telefon söhbətində Türkiyə-Azərbaycan əməkdaşlığının inkişafına yönəlmiş məqamlar, Ermənistanla münasibətlər, eyni zamanda, Rusiya-Ukrayna böhranı başda olmaqla regional məsələlər müzakirə olunub.

Liderlər söhbət zamanı ikitərəfli münasibətlər və regional məsələlərdə koordinasiyalı şəkildə hərəkət etmək qərarlarını bir daha təsdiqləyiblər. Eyni zamanda Türkiyə və Rusiya liderləri arasında da telefon danışığı olub.

Müzakirə zamanı Rusiya-Ukrayna münasibətləri də müzakirə olunub. Prezident Ərdoğan Ukraynanın suverenliyinə və ərazi bütövlüyünə qarşı atılan addımları tanımadıqlarını və bunun prinsipial bir mövqe olduğunu bildirib. Minsk razılaşmaları əsasında bir nəticəyə gəlməyin vacib olduğunu dilə gətirib. O, problemin daha da mürəkkəbləşməsinin, xüsusilə də hərbi qarşıdurmanın heç kimə fayda verməyəcəyini vurğulayıb.

Siyasi şərhçi Asif Nərimanlı Rusiya-Ukrayna münaqişəsində Azərbaycan və Türkiyənin mövqeyi barədə "Şərq"ə danışıb. O bildirib ki, hər iki ölkə əvvəldən Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir:

"Rəsmi Bakı Rusiyaya nə qədər yaxın olsa da, Ukrayna ilə bağlı əvvəldən beynəlxalq hüquqa uyğun olaraq öz mövqeyini bildirib. Azərbaycan və Türkiyə hər iki ölkənin masada razılığa gəlməsindən yana olub. Qərbin qurduğu masa isə Ukraynanı faktiki olaraq qırğına verdi.

Qərb və Rusiyanın oynadığı bu oyunun arxa planında çox güman ki, böyük bir anlaşma var. Onlar Ukraynanı Kremlin "ətçəkən maşın"ın ağzına atdılar. Bu prosesdə, bəlkə də, Ukrayna üçün yeganə çıxış yolu Azərbaycan və Türkiyənin dəstəyi ola bilər".

Analitik Ukrayna prezidentinin BMT Təhlükəsizlik Şurasının iclasındakı çıxışına diqqət çəkib:

"Zelenski burda çıxışı zamanı əbəs yerə Türkiyənin adını vurğulamırdı. O, bu iclasda şura üzvlərindən başqa Almaniya ilə rəsmi Ankaranın da iştirakını istəyib. Zelenski bilirdi ki, vəziyyət onun xeyrinə olmayacaq. Burda Türkiyə üzərindən müəyyən bir dəstək qazanmağı hesablayıb. Türkiyə və Azərbaycan Qərbdən fərqli olaraq əvvəldən məsələnin bu yerə qədər gəlməsinin əleyhinə olub. Onlar bu yolda müəyyən cəhdlər ediblər. Prezident İlham Əliyevin Ukraynaya səfəri, eləcə də, Putinlə danışıqları, eyni zamanda telefon danışıqlarında Rusiya-Ukrayna məsələsini müzakirə etməsi buna sübutdur. Rəsmi Bakı və Ankara arxa planda tərəflər Rusiya-Ukrayna gərginliyini azaltmaq üçün müəyyən cəhdlər etdilər. Bütün bunlar Rusiyanın qarşısını ala bilmədi. Ukrayna rəsmi Ankaradan dəstək istəyib. Türkiyə dövlət başçısı isə Təhlükəsizlik Şurasının iclasını keçirib. Güman ki, bundan sonrakı prosesdə müharibənin qarşısı alınmağa çalışılacaq".

A.Nərimanlı Amerikanın, Qərb cəbhəsinin Rusiyanın Ukraynaya girməsində maraqlı olduğunu diqqətə çatdırıb:

"Hazırda dünyanı nüfuz dairəsinə bölürlər və rəsmi Kiyev bu işdə poliqona çevrildi. Onu göz-görə qırğına verdilər. Ehtimal edirəm ki, Türkiyə bu prosesdə Qərbdən kənar ayrıca bir oyunçu kimi tərəfləri bir araya gətirməyə çalışacaq. Buna nə qədər nail ola biləcəyini isə zaman göstərəcək. Bu işdə rəsmi Bakı da təbii olaraq Türkiyənin yanındadır".

Günəş Mərd

Azərbaycan ABŞ-la münasibətlərdə həmişə dürüst, açıq olub

İndi biz dünyanın nəhəng dövlətindən eyni duruşun sərgilənməsini gözləyirik

”Mən bu gün Gəncədə olmaqdan məmnunam”. Bu barədə ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberqer bildirib. O deyib ki, Gəncəyə səfər etməkdə məqsəd texniki sertifikatlaşdırma proqramının məzunlarını təbrik etmək olub.

”Düşünürəm ki, bu məzunlar ən keyfiyyətli fındığın istehsalına töhfə verəcəklər. Bu gün məzun olan 35 iştirakçı 3 aylıq proqramda iştirak edib. Bu proqram çərçivəsində onlara fındıq becərilməsinin ən qabaqcıl metodları və texnologiyası öyrədilib. Bu proqram USAİD, İtaliyanın qənnadı şirkəti ”Ferrero” və Azərbaycan Dövlət Aqrar Universitetinin birgə əməkdaşlığı çərçivəsində həyata keçirilib. Mən çox şadam ki, bu gün biz Azərbaycana qabaqcıl bilik və bacarıqlara yiyələnmiş 35 aqronom qazandırırıq. Bu, proqramımızın ilk məzun qrupudur. Azərbaycan öz iqtisadiyyatını inkişaf etdirdikcə, rifahını yüksəltdikcə, biz bu əməkdaşlığımızı bundan sonra da davam etdirəcəyik. Bildiyiniz kimi bu il Azərbaycan və ABŞ diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünü qeyd edirik. Belə proqramların həyata keçirilməsində iştirak etmək ABŞ səfiri olaraq mənə qürur hissi verir. Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəyə səfər etmək mənim üçün hər zaman xoşdur”, - amerikalı diplomat vurğulayıb.

Keçmiş Qarabağ münaqişəsi zamanı bəzi hallarda ABŞ müəyyən etnik qüvvələrin təsiri ilə Azərbaycanın əleyhinə doğru olmayan fikirlər səsləndiriblər. Ancaq diplomatik münasibətlər 30 ildə xeyli dərəcədə irəliləyib. Bəs, bundan sonra Azərbaycan və ABŞ münasibətləri istənilən səviyyəyə çata biləcəkmi?

Politoloq Tural İsmayılov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, Azərbaycan balanslaşdırılmış xarici siyasət kursu həyata keçirir.

”Qoşulmama hərəkatı”nın sədri kimi dünyanın bir sıra siyasi qüvvələri ilə müxtəlif platformalarda əməkdaşlıq edirik. Azərbaycanın Türkiyə ilə Şuşa, Rusiya ilə Moskva Bəyannaməsini imzalaması hansısa ölkələrlə əlaqələri kəsməyi və kimisə savaş açmağı demək deyil. Azərbaycanın ABŞ ilə də münasibətləri dürüst və açıqdır. Biz heç vaxt öz ərazimizdən Amerikaya qarşı siyasi və ya iqtisadi planların həyata keçirilməsinə icazə verməmişik. Eyni zamanda Azərbaycan neytral ölkə kimi NATO rəhbərliyi və Rusiya silahlı qüvvələrinin baş qərargahı arasında görüşlərin keçirildiyi məkana çevrilib. Bu baxımdan Azərbaycanın dürüst niyyətlərinə qarşı Amerika da eyni şəkildə davranmalıdır. Lakin təəssüf ki, Amerikadakı erməni lobbisi onun siyasi sisteminə bəzən çox dərin təsir göstərə bilir. Belə zamanlarda, ABŞ bizə qarşı haqsız fikirlər səsləndirir. Birləşmiş Ştatların dövlət departamentinin qeyri-obyektiv mövqe ortaya qoyduğu açıqdır. Amerikanın strateji tərəfdaşlarından biri də Avropa İttifaqıdır və onun enerji təhlükəsizliyində Azərbaycanın mühüm rolu var. TAP, TANAP və Cənub qaz dəhlizi bu ölkənin Avropanın enerji bazarındakı əhəmiyyətini göstərir. Bu da ölkəmizin siyasi qüvvə olaraq çəkisinin Qərb üçün nə qədər önəmli olduğunu göstərir. Azərbaycan Amerika ilə münasibətlərinin yaxşılaşması üçün addımlar atıb. Qarşı tərəfdən də Ermənistana qarşı sərt təzyiqlər olmalıdır. Xüsusən, Birinci Qarabağ müharibəsində əsir və itkin düşmüş vətəndaşlarımızın taleyi ilə bağlı Ermənistana təsir göstərməlidir. Nə qədər ki, Amerika erməni lobbisinin təsiri altında qərarlar verəcək, bu, iki ölkənin münasibətlərində arzuolunan səviyyəyə çatmağa əngəl törədəcək”.

Sənan İsmayıl

"Belarus Ukrayna paytaxtını birbaşa təhlükəyə atır"

Turab Rzayev: “Bu, Belarusun öz ərazisini Kiyevə hücum üçün birbaşa Rusiyanın ixtiyarına verməsi deməkdir”

Ukrayna Dövlət Sərhəd Xidməti Rusiyanın Belarus ərazisindən hücuma keçdiyinə dair məlumat yayıb: ”Təcavüzkar aviasiya və tanınma nişanı olmayan hərbi texnika ilə Belarus ərazisindən hücuma cəhd edir”.

Məlumatda qeyd olunub ki, yerli vaxtla fevralın 24-ü saat 09:40-da Belarus ərazisindən tanınma nişanı olmayan hərbi helikopter yüksələrək atəş açmağa başlayıb. Ukrayna Silahlı Qüvvələrinin baş komandanı, general-leytenant Valeri Zalujnı isə ”facebook” hesabında Belarus ərazisindən Ukraynanın cənub-şərq istiqamətinə 4 ballistik raket atıldığını qeyd edib.

Turab Rzayev Belarusun Rusiya-Ukrayna münaqişəsindəki mövqeyini ”Şərq”ə şərh edərək deyib ki, hazırda rəsmi Moskva Kiyevin işğalını həyata keçirir:

”Bu işdə Belarus Rusiyanın dediyi hər şeyi qeyd-şərtsiz yerinə yetirir. O, hazırda Rusiyanın vassalı kimi davranır. Bilirsiniz ki, Lukaşenko sərbəst siyasət yeridirdi. Amma son seçkilərdəki mitinqlərdən sonra o, Rusiyaya sığınmalı oldu. Putin ona vassallıq müqaviləsi imzalatdırdı. İndi o, xarici siyasətdə hərbi məsələlərdə piar meneceridir”.

Analitik hazırda Rusiyanın Kiyevdən 15 dəqiqəlik məsafədə yerləşən Antonov Beynəlxalq hava limanını ələ keçirdiyini vurğulayıb. Onun fikrincə, bu, Belarusun öz ərazisini Kiyevə hücum üçün birbaşa Rusiyanın ixtiyarına verməsi deməkdir:

”Kiyevə çatmaq üçün Ukraynanın şərqindən günlərlə ağır döyüş və vaxt lazım olduğu halda Belarusdan bura iki saatlıq məsafədir. Belarus bu addımla Ukrayna paytaxtını birbaşa təhlükəyə atır”.

Siyasi şərhçiyə görə, Lukaşenko bununla özünün Putinin idarə etdiyi oyuncaq dövlət rəhbərindən başqa bir şey olmadığını bir daha sübut etdi.

Günəş Mərd

Təkcə rubl deyil, Rusiyanın iqtisadiyyatı tamam çökəcək

Kremlin ən ağır dönəmləri bundan sonra başlayacaq



”Bloomberg” rublun dünyanın ən volatil (uçucu) valyutasına çevrildiyini yazıb.

Bu gün Rusiya rublunun Azərbaycan manatına qarşı rəsmi məzənnəsi 0,0194 manat (1 manat/51,55 rubl) təşkil edib ki, bu da 2016-cı ilin yanvarın 22-dən bəri qeydə alınan ən aşağı göstəricidir.

Rubl ABŞ dolları qarşısında, Rusiyanın Ukrayna ərazisindəki ”Donetsk Xalq Respublikası”da açıqladığı hərbi əməliyyat fonunda yeni eniş yaşayıb. Moskva birjasında səhər 8:00-da dolların məzənnəsi 84,07 rubla çatıb. Daha sonra rublun məzənnəsi Moskva birjasının müəyyən etdiyi həddə düşdüyü üçün ticarət dayandırılıb. Manatın ABŞ dollarına qarşı məzənnəsinin 1 dollar/1,7 manat səviyyəsində olan sərt bağlılığını nəzərə alaraq, rublun dollar qarşısında dəyərsizləşməsi AZN-RUB cütlüyündə də rublu kəskin endirib.

Maraqlıdır ki, Rusiyaya qarşı Amerikanın və Qərbin tətbiq etdiyi sanksiyalar qarşısında rubl nə qədər duruş gətirə biləcək?

Bu barədə ”Şərq”ə danışan iqtisadçı-alim Fuad İbrahimovun sözlərinə görə, Rusiya iqtisadiyyatı üçün ən çətin dövr bundan sonra başlayır: ”Bu təkcə rublla deyil, Rusiyanın iqtisadiyyatı ilə bağlıdır. Ən çətin zamanlar bundan sonra yaşanacaq. Rusiya indi sovet dönəmindəki deyil. Müasir Rusiya kifayət qədər dövrün tələblərinə uyğun şəkildə dünyada gedən proseslərə inteqrasiya edir. Ancaq istənilən sanksiyaların tətbiqi onun iqtisadiyyatına mənfi təsir göstərəcək. Qısa zaman kəsiyində rus rublu bundan da ağır vəziyyətə düşə və valyutanın ucuzlaşması kritik nöqtəyə qədər gedib çata bilər. Nəzərə almaq lazımdır ki, Rusiyanın bir çox strateji məhsulların idxalından asılılığı var. Həmin məhsulların qiymətində kifayət qədər bahalaşma baş verəcək. Eyni zamanda bu, idxalın azalmasına gətirib çıxaracaq. Nəticədə, həmin məhsullar piştaxtalardan yoxa çıxacaq. Ümumilikdə, bu sanksiyalar təkcə rubla deyil, Rusiyanın digər indekslərinə də mənfi təsir göstərəcək. Bu səbəbdən arzuolunmaz bazar fiaskosu yaşana bilər”.

Sənan İsmayıl

Qürub başlayıb...

Artıq Putin rejimini heç bir ”günəş” qızdırmayacaq

”Rusiyanın Ukraynaya hərbi təcavüzü strateji səhvdir və bunun acı meyvələrini təkcə Putin rejimi deyil, rus xalqı da dadacaq”.

”Şərq”in məlumatına görə, bu sözləri politoloq Natiq Miri feysbuk hesabında yazıb.

Politoloq Ukrayna - Rusiya müharibəsinə münasibət bildirib:

”Artıq Putin rejimini heç bir ”günəş” qızdırmayacaq, qürub başlayıb. Ukrayna xalqına isə dözüm, mətanət, cəsarət və birlik diləyirəm. Əmin olsunlar, bir olan xalqa dünyada heç bir güc qalib gələ bilməz. Onu da unutmayın ki, əvvəl cəfa, sonra səfa gəlir və bütün inkişaflar xaosdan keçir. Allah yar və yardımçınız olsun, çünki ədalət sizin yanınızdadır, haqlı olan güclüdür”- deyə o qeyd edib.

Aygün

Josep Borrell: "Avropa indi ən qaranlıq saatlarını yaşayır"

Avropa İttifaqının xarici siyasət rəhbəri Josep Borrell rəsmi Moskvanın Ukraynaya hücumu barədə jurnalistlərə açıqlama verib. J.Borrell Avropanın ən qaranlıq saatlarını yaşadığını vurğulayıb:

”Rusiyanın Ukraynaya hücumu İkinci Dünya müharibəsinin bitməsindən sonra Avropa üçün ən qaranlıq saatlardan biridir”.

Borrell Ukraynaya təcili yardım vəd edib, o cümlədən Aİ işçilərinin evakuasiya səylərini dəstəkləyəcək.

J. Borrell Rusiyaya qarşı cəza tədbirlərinin indiyə qədər həyata keçirilən ən sərt sanksiyalar olacağını söylədi.

AB Komissiyasının sədri Ursula von der Leyen Rusiyaya qarşı sanksiyaları bu gün təsdiq üçün təqdim edəcəyini söylədi.

Cəmilə Əzim

Özü geri çəkilir...

“Rusiya-Ukrayna savaşı Baydenin ”əsəri”dir”

Rusiya qoşunları fevralın 23-dən Ukrayna ərazisində hərbi əməliyyata başlayıb. Fevralın 24-ü səhər saatlarında Kiyevin ”Borispol” Beynəlxalq Hava Limanı Rusiyanın hərbi müdaxiləsinə görə fəaliyyətini dayandırıb. Almaniya kansleri Olaf Şols Rusiyanın Ukraynaya qarşı hərbi əməliyyatını beynəlxalq normaların pozulması kimi qiymətləndirib. Böyük Britaniyanın Müdafiə naziri Ben Uolles isə Rusiyanın bu addımını açıq aqressiya adlandırıb. NATO baş katibliyində də məsələyə münasibət bildirilib : ”Dənizdə 100-dən çox qırıcı təyyarə və 120 gəmi hazır gözləyir. Lazım olan hər şeyi etməyə davam edəcəyik”.

Siyasi şərhçi Elçin Xalidbəyli ”Şərq”ə danışarkən bildirib ki, ABŞ və Qərb hələlik Rusiyanın Kiyevə hərbi müdaxiləsi qarşısında çaşqın vəziyyətə düşmüş kimi görünür: ”Operativ reaksiya və təcili əks addımların atıldığı müşahidə edilmir. Ancaq Rusiyanı Ukraynaya hərbi müdaxilə etdiyinə görə qınamaqla kifayətlənirlər. Bəzi Qərb siyasi dairələri ehtiyatlı və planlaşdırılmış addımların tərəfdarı kimi çıxış edirlər. Onların fikrincə, Ukrayna ətrafında baş verənlərin qlobal savaşa çevrilmə ehtimalı mövcuddur. Hesab edirlər ki, heç bir halda, Ukrayna savaşının üçüncü dünya müharibəsinə çevrilməsinə imkan vermək olmaz. Ancaq Rusiyanın Ukraynaya qarşı başlatdığı savaşın qonşu ölkələrə sıçrama ehtimalı olsa da, hələlik bu, o qədər də real görünmür. Çünki Rusiyaya indi üzləşdiyi hərbi problemin daha da böyüyərək, qlobal xarakter alması qətiyyən sərfəli deyil. Halbuki, Qərb siyasi dairələri hesab edirlər ki, Ukraynaya qarşı açılan savaş yaxın gələcəkdə Avropanın təhlükəsizlik maraqlarına qarşı ən real təhdidə çevrilə bilər. Ona görə də ABŞ və Qərb hazırda daha çox nəyin bahasına olursa-olsun, Rusiyanın durdurulması üzərində düşünür”.

Siyasi şərhçiyə görə, ABŞ və Qərb Rusiya ilə hərbi münaqişəyə girmək niyyətindən çox uzaqdır:

”Ağ Evdə və Qərb siyasi dairələrində hesab edirlər ki, Rusiya ilə hərbi münaqişəyə bulaşarlarsa, bu, üçüncü dünya müharibəsi ilə nəticələnə bilər. ABŞ və Qərb hətta savaşda Rusiyanın çətin vəziyyətə düşəcəyi təqdirdə, Kremlin nüvə silahından istifadə edə biləcəyindən də narahatdır. Vladimir Putinin ABŞ və Qərbə müraciət edərək, beynəlxalq rəqiblərini Ukraynadakı hərbi əməliyyatlara müdaxilə etməkdən çəkinməyə çağırması da, məhz belə bir təhlükədən xəbər verir. Kreml sahibinin ”Müdaxilə edənlərə elə cavab verəcəyik ki, onlar bununla hələ öz tarixlərində üzləşməyiblər” deməsi də, Rusiyanın ABŞ və Qərbi açıq mətnlə təhdid etməsi anlamına gəlir. Halbuki, Prezident V.Putinin bu təhdidinə əslində, elə bir ciddi ehtiyac yox idi. Çünki ABŞ və Qərb onsuz da Rusiya ilə müharibə təhlükəsindən maksimum səviyyədə yayınmağa çalışır. Prezident Co Bayden son açıqlamasında Ukraynaya qarşı savaşla bağlı Rusiyaya sərt reaksiya veriləcəyini bildirib. Ancaq onu da vurğulayıb ki, ABŞ-ın Rusiya ilə hərbi münaqişəyə girmək kimi bir niyyəti də yoxdur. Yəni Rusiyanın Ukraynaya qarşı hərbi müdaxiləsinə yalnız beynəlxalq sanksiyaların tətbiqi ilə cavab verməyi düşünürlər”. Analitik düşünür ki, indi ABŞ və Qərb Ukraynaya açılan müharibəni əsas gətirərək, Rusiyanı sanksiyalarla tədricən zəiflətmək senarisi üzrə hərəkət etmək niyyətindədir: ”Ona görə də qlobal savaş və ya üçüncü dünya müharibəsi ilə bağlı ehtimal hələlik o qədər də real görünmür. Eyni zamanda, Rusiyanın Ukraynaya qarşı başlatdığı müharibənin nə qədər çəkəcəyini də əvvəlcədən söyləmək bir qədər çətindir. Çünki bu, ilk növbədə daha çox Ukrayna ordusunun müqavimət gücündən asılı olacaq. Eyni zamanda bu savaşın Rusiya və Ukrayna üçün hansı nəticələri verəcəyi həm də ABŞ və Qərbin reaksiyasından da asılıdır. Hələlik bu reaksiyalar mövcud situasiyaya qətiyyən adekvat deyil”.

"Rusiya Ukraynaya hücum etməzdən əvvəl tam əmin idi ki, ABŞ və Qərb sadəcə seyrçi mövqeyində qalacaq. Ona görə də Rusiya bu qədər arxayınlıqla Ukraynaya qoşun yeritdi"

E.Xalidbəyli hesab edir ki, Ukraynaya qarşı savaş məhz ABŞ və Qərbin Rusiyanı hədəf alan hərbi-siyasi təxribatları ucbatından baş verib:

”Yəni bu savaş böyük ölçüdə Baydenin ”əsəri”dir. Əvvəlcə Ukrayna ərazisində NATO hərbi bazaları yerləşdirmək niyyətlərinə eyham vurdular. Ardınca Rusiyanın israrlı etirazlarına baxmayaraq, Ukraynanın NATO-ya üzvlüyü mövzusunu aktuallaşdırdılar.

Nəticədə Ukrayna böhranını yaradaraq Rusiya ilə qarşıdurmanı maksimum həddə qədər gərginləşdirdilər.

Rusiya aqressivləşdikdən sonra isə ABŞ və Qərb böyük sürətlə geri çəkilməyə başladı. Hətta ABŞ Prezidenti Co Baydenin son açıqlamasının məzmunu Rusiya Ukraynaya hücum edərsə, Ağ Evin neytral qalacağına tam təminat verilməsi xarakteri daşıyır. Çünki Prezident Co Bayden açıq mətnlə vurğulayırdı ki, Kreml Ukraynaya hücum qərarı verərsə, ABŞ Rusiya ilə hərbi münaqişəyə girməyəcək. Rusiya Ukraynaya hücum etməzdən əvvəl tam əmin idi ki, ABŞ və Qərb sadəcə seyrçi mövqeyində qalacaq. Ona görə də Rusiya bu qədər arxayınlıqla Ukraynaya qoşun yeritdi” .

Siyasi şərhçinin qənaətincə, indi ABŞ və Qərbin Ukrayna ətrafında baş verənlərə reaksiyası yalnız Rusiyaya qarşı vəd etdikləri dağıdıcı sanksiyaların tətbiqi ilə effektiv ola bilər: ”Çünki indi Rusiyanı yalnız əzici sanksiyalarla Ukrayna ilə savaşı dayandırmağa məcbur etmək mümkündür. Əks halda, Kreml Ukraynada nəzərdə tutduğu bütün hədəflərini reallaşdırana qədər savaşa davam edəcək.

Hələlik görünən odur ki, ABŞ və Qərb Rusiyanı savaşın dayandırılmasına məcbur edə biləcək ”dağıdıcı sanksiyalar”ın tətbiqinə o qədər də həvəsli və tam hazır deyil”.

Günəş Mərd

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;

Bakı həmişə çoxmillətli şəhər olub

Azərbaycanda multikulturalizm ruhu praktiki olaraq hər yerdə görünür

Prezident İlham Əliyev Rusiyada media rəhbərləri ilə görüşündə Azərbaycandakı dini və milli tolerantlıqdan danışıb. Dövlət başçısı bildirib ki, bizdə etnik prinsipə görə ölkəyə girişə qadağa yoxdur və erməni xalqının nümayəndələrinin Azərbaycana çoxsaylı səfərləri buna sübutdur. Ölkə rəhbəri qeyd edib ki, onlar Avropa Oyunları kimi idman tədbirlərində iştirak ediblər:

”Ermənistandan olan komanda iştirak edib, mən hətta xatırlayıram ki, Ukraynanın milliyyətcə erməni olan bir nümayəndəsinə gümüş medalı şəxsən özüm təqdim etmişəm. O, qızıl medal qazanan azərbaycanlı boksçu ilə fəxri kürsüdə yanaşı dayanmışdı. Mən onun da əlini sıxıb təbrik etdim və bu, zaldakı adamların ürəyincə olmasa da, onlar məni uzun müddət alqışladılar”. Ölkə rəhbəri xatırladıb ki, bir neçə il bundan əvvəl Katalikos Qareginin Azərbaycana səfəri olub: ”Mən öz iş kabinetimdə onunla görüşmüşəm. O, Bakının mərkəzində erməni kilsəsində oldu və bu kilsədə erməni dilində 5 mindən çox kitabı qoruyub saxlamağımıza təəccübləndi, o, özü buna şahiddir. Mən belə nümunələri çox misal gətirə bilərəm - erməni soylu deputatlar, ictimai xadimlər, digər ölkələrin vətəndaşları. Bizdə qadağa yoxdur”.

Prezident bəyan edib ki, İrəvandan fərqli olaraq, Bakı həmişə çoxmillətli şəhər olub: ”Monoetnik dövlət olan, praktiki surətdə bütün milli azlıqların, ilk növbədə, azərbaycanlıların deportasiya edildiyi, qovulduğu Ermənistandan fərqli olaraq, Azərbaycan indiyə qədər çoxmillətli dövlətdir. Buna görə də Azərbaycanda multikulturalizm ruhu praktiki olaraq hər yerdə görünür və üstəlik, Azərbaycanda erməni millətindən olan minlərlə Azərbaycan vətəndaşı yaşayır. Onların sayı deyilən 30 mindən azdır. Yəqin ki, 30 min 10-15 il bundan əvvəl olub, bununla belə onlar var, yaşayırlar və normal yaşayırlar, heç kəs onlara heç bir iddia irəli sürmür. Buna görə də sizin sualınıza cavab vermək imkanından istifadə edərək sizi Azərbaycana gəlməyə dəvət etmək istərdim. Siz görərdiniz ki, heç bir məhdudiyyət yoxdur”.

Azərbaycanın Qarabağ müharibəsində qələbə qazanması və öz əzəli torpaqlarını erməni işğalından azad etməsindən sonra dünyanın bir sıra ölkələrinin liderləri, həmçinin elm, mədəniyyət və incəsənət xadimləri vətənimizin ərazisində yerləşən xristian məbədlərinin taleyi haqqında öz ”narahatlığını” bildirdilər. Bu zaman onlar erməni işğalçılarının Qarabağdakı müsəlman məbədlərinə, Azərbaycan xalqının memarlıq və arxeoloji irsinə qarşı nə dərəcədə barbarcasına davrandığını dilə gətirməyi ”yaddan çıxardılar”. Muzey və kitabxanaların talan edilməsi, elə həmin xristian məbədlərinin ermənileşdirilməsi haqqında bir kəlmə də demədilər. Təəssüf ki, ikili standartlar dünyasında biz bəlli olanı sübut etməli oluruq. Halbuki, hələ az öncə bu siyasətçilər və ictimai xadimlər özləri də Azərbaycan cəmiyyətində bütün etnoslara, inanclara və mədəniyyətlərə qarşı sıx münasibətlər formalaşıb, heç bir milli, irqi və dini ayrı-seçkilik mövcud olmayıb. Təsadüfi deyil ki, Azərbaycana müxtəlif illərdə səfər edən rəsmi şəxslər ölkədə hökm sürən dini tolerantlığın yüksək səviyyədə olduğunu qeyd edərək respublikamızda mövcud olan dinlərarası münasibətlərin və dözümlülüyün dünyanın digər ölkələri üçün yaxşı nümunə ola biləcəyini vurğulayıblar.

Beləliklə, Azərbaycanda hökm sürən tolerantlığın spesifik xüsusiyyətini müxtəlif dini konfessiyaların nümayəndələrinin birbirinə qarşı və dövlətin onlara ayrı-ayrılıqda və bütövlükdə olan münasibəti təşkil edir. Konfessiya rəhbərlərini qəbul edərkən Prezident İlham Əliyev onlarla məsləhətləşmələr aparır, inanclı insanları bütün dini bayram və xüsusi mərasim günləri münasibətilə dövlət səviyyəsində təbrik edir. Bir çox müqəddəs yer, abidə, dini simvol və əşyalar dövlət tərəfindən bərpa edilir və qorunur.

Millət vəkili Ceyhun Məmmədov ”Şərq”ə açıqlamasında deyib ki, ermənilərin Azərbaycanda guya dini-milli tolerantlıq olmaması, etniklərin təzyiqlərə məruz qalması barədə səsəm iddiaları növbəti təxribat cəhdidir. Deputatın sözlərinə görə, hazırda Azərbaycanda 30 min erməni yaşayır: ”Erməni din xadimləri, idmançıları, rəsmiləri, deputatları ölkəmizə səfər edərək müxtəlif tədbirlərdə iştirak ediblər. Azərbaycan dünyada azsaylı ölkələrdəndir ki, burada müxtəlif dinlərin, xalqların nümayəndələri sülh və qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Onlara qarşı hansısa təzyiqdən söhbət gedə bilməz. Ermənilər öz yalanlarından əl çəkməlidir. Əslində ermənilər bizi ittham etdikləri əməllərə özləri rəvac verirlər. İki deputat həmkarımızın İrəvana səfəri zamanı etirazların, Azərbaycan əleyhinə səslənən şüarların şahidi olduq. Erməni rəsmiləri Azərbaycan deputatları ilə bir masa arxasında əyləşmək istəmirdilər. Bu, bir daha göstərir ki, ermənilər digər xalqlara qarşı dözümsüzlük nümayiş etdirirlər. Azərbaycanın heç bir dövlət qurumunda, hüquq-mühafizə orqanlarında, rəsmi şəxslərimizdə sırf ermənilərə qarşı dözümsüzlük və məqsədyönlü siyasət yoxdur”.

İsmayıl Qocayev

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

Ermənistanın çoxillik dezinformasiyası ifşa olunacaq

Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması ilə bağlı ciddi iş aparılır

”44 günlük Vətən müharibəsindən sonra xalqımızın tarixindəki bir çox hadisə və faciələrə, o cümlədən Xocalı soyqırımına yeni nəzərlə baxırıq”.

Bu barədə Milli Məclisin sədr müavini Adil Əliyev deyib. Vitse-spiker deyib ki, Vətən müharibəsinədək Xocalı soyqırımı bizim üçün düşmən tərəfindən amansızlıqla törədilmiş qətliam və köməksiz qadın, uşaq və qocaların qətlə yetirilməsi, zülmə və ədalətsizliyə məruz qalmağımız demək idi.

Amma böyük Zəfərdən sonra Xocalı soyqırımı təkcə xalqımızın başına gətirilmiş müsibət yox, həm də qələbəmizə gedən yolda xalqımızın düşmənə qarşı nümayiş etdirdiyi qorxmazlıq, barışmazlıq və toparlana bilmək səhifəsi anlamına gəlir: ”Xocalı soyqırımının əsas təşkilatçılarından olan Serj Sarkisyan açıq etiraf edir ki, bu cinayəti törətməkdə əsas məqsəd azərbaycanlıları, məhz mülki əhalini, silahsız, dinc insanları qorxutmaq olub. Ermənistan tərəfi Xocalıda soyqırım törətdi, amma həmin məqsədinə nail ola bilmədi və buna görə də strateji baxımdan məğlub oldu.

Birincisi ona görə ki, Xocalı soyqırımının törədilməsi azərbaycanlıları nəinki qorxutmadı, əksinə, cəbhəyə getmək üçün yeni könüllülər dalğası yaratdı. O zaman çoxlu sayda gənclərimiz Xocalıda qətlə yetirilmiş uşaqların, qadınların və qocaların intiqamını almaq üçün könüllü olaraq cəbhəyə yollandılar. Amma o başqa bir mövzudur ki, həmin dönəmdə vahid komandanlığın olmaması, ölkədə hökm sürən siyasi hərc-mərclik və rəhbərliyin səriştəsizliyi ucbatından Vətən yolunda canını fəda edən çoxlu gənclərimizin olmasına baxmayaraq, düşmən qarşısında məğlub duruma düşməli və yeni faciələrlə üz-üzə qalmalı olmuşduq.

İkincisi və ən önəmlisi isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığımız böyük Zəfər Ermənistanı hər cəhətdən çökdürdü. Azərbaycan xalqının Xocalı soyqırımından sonra nəinki sınmadığını, hətta daha güclü şəkildə toparlandığını göstərdi”.

A.Əliyevin sözlərinə görə, Xocalı soyqırımı ədalətsizlik, Zəfərimiz isə ədalətin bərpasıdır: ”Amma biz mülki insanlardan qisas almadıq, ədaləti ləyaqətlə bərpa etdik. Vətən müharibəsində Azərbaycan Ordusunun qarşı tərəfdəki dinc əhaliyə münasibətdə ləyaqətli davranışı və düşmən hərbçilərlə müharibə qaydalarına uyğun rəftarı Xocalı soyqırımını törədən Ermənistanın mənəvi acizliyini bir daha ortaya qoydu. Azərbaycanın isə mənəvi-psixoloji qüdrətini, humanizmə, ləyaqətə və ümumbəşəri dəyərlərə sədaqətini praktiki olaraq təsdiq etdi. Xocalı soyqırımı Azərbaycan xalqının strateji səbrinin sınağı idi və xalqımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə bu sınaqdan üzüağ çıxdı. Xocalı faciəsi tarixdə Azərbaycan xalqının şuruna və kimliyinə ən çox təsir etmiş hadisələrdəndir. 30 il ərzində bu faciə haqqında çox yazılıb və danışılıb. Amma yenə də hadisənin daha dərindən bəhs və tədqiq edilməli, daha çox diqqət ayrılmalı aspektləri qalır. Bu, xüsusən dezinformasiya və yalan informasiyalar fonunda aktuallıq kəsb edir. Baxmayaraq ki, dezinformasiya və yalan xəbərlər dünyada daha çox internetin və sosial şəbəkələrin yaranması ilə aktuallaşıb, Azərbaycana qarşı dezinformasiya kampaniyalarının tarixi daha əvvələ gedir. Xocalı soyqırımı ətrafında Ermənistan və onun beynəlxalq havadarları tərəfindən aparılan dezinformasiya və manipulyasiya əməlləri bunu açıq şəkildə göstərir. Belə əməlləri sübut edən bir neçə məqama diqqət edək”.

Parlament sədrinin müavini deyib ki, Serj Sarkisyan müsahibəsində Xocalıda törədilən vəhşilikləri ”Bakı və Sumqayıtdan olan erməni oğlanların” adına yazmaqla həm hadisənin mahiyyətini təhrif edib, həm də dinc əhaliyə qarşı törədilmiş qəddar cinayətin miqyasını kiçiltmək üçün cılız cəhd göstərib: ”Lakin 613 nəfərin qətlə yetirildiyi bir dəhşətin miqyasını kiçiltmək mümkün deyil. Elə bir onu demək kifayətdir ki, faciədən 2-3 gün sonra, martın 1-də 366-cı alayın ərazidən çıxarılmasına başlanmış və 10 gün sonra alay, ümumiyyətlə ləğv edilmişdir. Səbəb sadədir. Heç bir dövlət, heç kəs özünün bu dəhşətli, böyük miqyaslı qətliamla əlaqələndirilməsini, adının hallanmasını istəmirdi. 366-cı alaydan söz düşmüşkən bir sual doğuran məqamı daim diqqətdə saxlamalıyıq. 366-cı alayın Qorbaçov hakimiyyətə gəldikdən sonra Şəmkirdən Xankəndinə köçürülməsi və məhz Xankəndi-Şuşa yolu üzərində yerləşdirilməsi o dövrün heç bir hərbi-strateji məntiqinə və meyarlarına nəinki uyğun gəlmir, hətta ziddir. Hərbi ekspertlər də bu müəmmanın səbəbini izah etməkdə hələ də çətinlik çəkirlər.

Beləliklə, erməni dezinformasiya maşını bir tərəfdən Xocalı soyqırımını örtbasdır etməyə, digər tərəfdən isə Sumqayıt hadisələrinin təhrif olunmuş variantını qabartmağa çalışır. Bu məsələdə erməni lobbisi və müxtəlif təşkilatlar və şəxslər də Ermənistana ciddi dəstək verir. Misal üçün, elə Sarkisyanla həmin müsahibəni aparmış Tomas de Vaal deyir ki, o, Xocalı haqqında mətbuata şərh və ya müsahibə vermək istəmir. Bu mövqeyini onunla izah edir ki, Xocalıya təkcə bir hadisə kimi baxılmamalı, digər hadisə və proseslərlə kontekstləşdirilməlidir. Sadə dildə desək, Tomas de Vaal da Xocalını təhrif edərək onu hansısa hadisələrin uydurulmuş və ya təhrif edilmiş versiyasına cavab olaraq nəzərdən keçirilməsini tələqin edir.

Xocalı soyqırımının təhrif edilməsi və dezinformasiya işinin aparılması onun beynəlxalq səviyyədə tanınmasına əngəl törətməyə xidmət edir. Buna baxmayaraq, Azərbaycan Xocalı soyqırımının beynəlxalq səviyyədə tanınması ilə bağlı ciddi iş aparır və artıq əhəmiyyətli nəticələr də əldə olunub. ABŞ-da 30 artıq ştatın parlamenti və qubernatorları, Çexiya, Sloveniya, Şotlandiya kimi Avropa ölkələrinin parlamentləri, digər dövlətlərin qanunverici orqanları Xocalı soyqırımına dair qətnamələr qəbul etmişlər. Bir sıra beynəlxalq təşkilatlar da bu barədə sənədlər qəbul ediblər. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən ”Xocalıya ədalət” kampaniyası Xocalı soyqırımının beynəlxalq ictimaiyyət tərəfindən tanınmasında son dərəcə mühüm rol oynayıb və Ermənistan tərəfinin yuxarıda qeyd edilən çoxillik dezinformasiya və təhrif fəaliyyətinə sarsıdıcı zərbə endirib”.

İsmayıl

Efirə çıxıb tərifləməklə iş bitmir

Əhalinin böyük qismi hələ də icbari tibbi sığorta haqqında ətraflı bilgiyə malik deyil

Əhalinin hər 1000 (min) nəfərinə tibb müəssisələrinə olunan müraciət sayına əsasən ilk onluqda yer alan şəhər və rayonlar Mingəçevir (442), Gəncə (249), Balakən (220), Şirvan (205), Yevlax (203), Beyləqan (193), Qəbələ (169), Göyçay (160), Qax (158) və Göygöldür (154). İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən Trend-ə verilən məlumata görə, icbari tibbi sığortanın tətbiq olunduğu tibb müəssisələri tərəfindən Dövlət Agentliyinə təqdim edilən ilkin hesabatlara əsasən cari ilin yanvar ayı ərzində 58 şəhər və rayonda 421 134 vətəndaşa 1 488 464 tibbi xidmət göstərilib.

Bu müddətdə tibb müəssisələrinə 655 626 müraciət daxil olub. Müraciətlər üzrə göstərilən tibbi xidmətlərin 1 295 394-ü ambulator, 193 070-i isə stasionar şəraitdə göstərilib. Ötən ay ərzində 58 rayon və şəhər üzrə tibb müəssisələrinə müraciətlərin çoxu tibbi müayinə (hərbi xidmətə çağırılanların müayinəsi daxil olmaqla), tənəffüs sistemi xəstəlikləri, qan dövranı sistemi xəstəlikləri, endokrin sistemin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozğunluğu, sidik-cinsiyyət sisteminin xəstəlikləri, həzm sisteminin xəstəlikləri, sümük və əzələ sisteminin və birləşdirici toxumanın xəstəlikləri, mamalıq və ginekologiya, gözün və gözün əlavə aparatının xəstəlikləri və müəyyən simptomlarla bağlı olub.

Açıqlanan statistika barədə fikirlərini ”Şərq”lə bölüşən pediatr Vaqif Qarayev qeyd etdi ki, bu cür məlumatlar həvəsləndirici xarakter daşıyır:

- Əhalini tibbi sığortadan istifadə etməyə həvəsləndirirlər. Lakin hesab edirəm ki, tibbi sığorta ilə bağlı davamlı maarifləndirmə işləri aparılmalıdır. Çünki əhalinin böyük bir qismi hələ də icbari tibbi sığorta haqqında ətraflı bilgilərə malik deyil. Bilgisi olanlar da tibbi sığortadan lazımi şəkildə yararlana bilmir. Bilirsiz, efirə çıxıb danışmaqla, tərifləməklə iş bitmir. Hamımıza məlumdur ki, icbari tibbi sığortanın tətbiqi üçün lazımi şərait hər yerdə yoxdur. Heç Bakının özündə, baxmayaraq ki, paytaxtdır, poliklinikalarda zəruri tibbi müayinə vasitələri çatışmır. Məsələ, nə qədər insanın tibbi sığorta üçün müraciət etməsində deyil. Məsələ, tibbi müayinə vasitələrinin, müalicə vasitələrinin hansı dərəcədə əlçatan olmasındadır. Sual olunur, hazırda dövlət tibb müəssisələrində, yerli poliklinikalarda müasir tibbi avadanlıqlar varmı? KTM müayinəsi mümkündürmü? Laboratoriyalarda analiz aparatları varmı? Səhiyyədə ilkin tibbi zəncir poliklinikalardır. İlk növbədə poliklinikalar tibbi avadanlıqlarla təmin edilməlidir. Deyəcəklər ki, var, bəli, tibb müəssisələri müasir tibbi avadanlıqlarla təchiz olunub. O zaman soruşuram, niyə rayonlardan əhali paytaxta axışır, sürünə-sürünə Bakıya gəlirlər? Var, lap yaxşı. Olsun. Amma boşboşuna tərif söyləməklə bir müddət insanları inandırmaq olur. Sonra insanlar həqiqəti başa düşür. Mən qətiyyən əhalini günahlandırmıram. Lazımi avadanlıq yoxdursa, insan xəstəliyin müalicəsi üçün əlbəttə paytaxta gələcək, özəl tibb müəssisələrinə müraciət edəcək. Burda əhalinin günahı yoxdur. Əhalinin günahı deyil ki, avadanlıq, aparatlar yoxdur. Günah işi təşkil edə bilməyənlərdədir.

V.Qarayev bildirdi ki, bir sıra regionlarda tibbi sığorta xidməti üçün əhali tərəfindən müraciətlərin sayının artması yaxşı haldır:

- Bu, ilk növbədə onunla əlaqədar ola bilər ki, həmin regionlarda əhali tibbi sığorta ilə artıq tanışdır. Belə bir xidmət növünün olduğunu bilir. Ötən ilin aprelindən icbari tibbi sığorta ölkə boyu tətbiq olunmağa başlayıb. Pandemiya bir müddət buna mane oldu, amma hər halda proses başladı. İcbari tibbi sığorta əhali üçün çox ciddi sosial layihədir. İllərlə pulsuz tibbi xidmət görməyən, bunu xəyal belə edə bilməyən əhaliyə indi pulsuz tibbi xidmət təklif olunur. Bu mənada əhalinin tibb müəssisələrinə axını tamamilə anlaşılandır. Amma yenə də problem müraciət edənlərin lazımi tibbi müayinə və xidmətlə hansı dərəcədə təmin edilməsidir. Tibbi sığorta paketi nələri əhatə edir, əhalinin aztəminatlı hissəsi tibbi sığortadan hansı dərəcə faydalanır? Bu suallara cavab verilməlidir:

- Qonşumuz Gürcüstan bir əmrlə icbari tibbi sığortaya keçid etdi. Əhaliyə sığorta kartları paylandı və bildirildi ki, bu kartla tibb müəssisəsinə gedəcəksiz, sizə pulsuz tibbi xidmət göstəriləcək. Bizdə kart sistemi deyil, şəxsiyyət vəsiqəsi ilə müraciət edilir. Tibbi sığortanın tətbiqi asan deyil. Hər ölkə bunu öz imkanları daxilində həll edir. İmkanlarına uyğun modellər tətbiq edir. Kart olmasın, şəxsiyyət vəsiqəsi olsun. Fərqi yoxdur, təki ödənişsiz tibbi xidmət göstərilsin. Yəni kasıb Gürcüstan bunu bacardı, varlı Azərbaycan bacarmır? Orda da sovet təfəkküründə işləyən yaşlı nəsil həkimlər vardı, amma gənclər yanaşma tərzini dəyişə bildilər. Həkimin müayinə, müalicə üçün müraciət etmiş şəxsdən maddi maraq güdməsi, ayıbdır! Gürcüstan neqativ hallarla mübarizə apardı və Qərb səhiyyə sisteminə keçid edə bildi. Bizdə də belə olmalıdır. Yetər ki, mane olmasınlar. Kim də bu işə mane olursa, yaxasından yapışıb bayıra atmaq lazımdır.

Məlahət Rzayeva

Təkcə Bakıda deyil, bölgələrdə də şagirdlər qidadan zəhərlənir

"Məktəblilərin qida bələdçiləri" problemin öhdəsindən gəlməyə xeyli yardımçı olacaq

Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) tabeliyində fəaliyyət göstərən Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu (AQTİ) UNICEF-in dəstəyi və Təhsil Nazirliyinin iştirakı ilə "Məktəblilərin qida bələdçiləri" pilot layihəsinə start verib.

Brifinqdə AQTA, UNICEF və Təhsil Nazirliyinin məsul əməkdaşlarının iştirakı ilə layihənin məqsədi və həyata keçirilmə metodikası haqqında media nümayəndələri məlumatlanıb.

Qida Təhlükəsizliyi Agentliyinin İnformasiya təminatı və innovativ həllər şöbəsinin müdiri Mansur Piriyev bildirib ki, "Məktəblinin dostu" layihəsinin iştirakçıları üçün (ilkin mərhələdə 30 nəfər) 12 mövzudan ibarət seminar onlayn formada təşkil olunub. AQTİ mütəxəssisləri tədris edəcəklər. Seminarlar həftədə 2 dəfə olmaqla 90 dəqiqə keçiriləcək. Seminar mövzuları əsasən qida təhlükəsizliyi, COVID-19-un profilaktikasına dair metodiki göstərişlər, sağlam qidalanmaya dair bilik və bacarıqlar, həmçinin ümumtəhsil müəssisələrində fəaliyyət göstərən bufet və yeməkxanalara nəzarət mexanizmləri nəzərə alınaraq hazırlanıb.

Seminarlar yekunlaşdıqdan sonra keçiriləcək imtahanı uğurla başa vuran iştirakçılar "Məktəblilərin Qida Bələdçiləri" nişanı ilə təltif olunacaq. Bu nişan sayəsində həmin şəxslər fəaliyyət göstərdikləri məktəblərdə bufetlərin fəaliyyəti, həmçinin tərəflərin qida təhlükəsizliyi və sanitar qaydalara hansı formada əməl olunmasına ictimai nəzarəti reallaşdıracaqlar.

Eyni zamanda təmsil etdikləri məktəblərdə bufetlər, sanitar qovşaq və digər ümumi istifadə olunan ərazilərə maarifləndirici məlumat banerləri yerləşdiriləcək. Məktəblilərə paylanması üçün çap materialları ilə təmin olunacaq.

Təhsil üzrə ekspert Kamran Əsədov "Şərq"ə açıqlamasında bildirib ki, hazırda Azərbaycanın 4432 orta ümumtəhsil məktəbində 1.6 milyon şagird təhsil alır: "Təkcə birinci sinifdə oxuyanların sayı 165 min, ibtidai siniflərdə isə 640 minə yaxındır. Bu, ciddi rəqəmdir. Xüsusən ibtidai sinif şagirdləri qidalanma ilə bağlı bəzi hallarda problemlər yaşayırlar. Bu addım olduqca müsbətdir. Nəzərə alaq ki, Azərbaycanda yeni layihə olan "məktəblinin dostu" məktəbdə təhlükəsiz mühit yaradır. Bəzən uşaqlar evdən qida gətirir və təhlükəsizliyə riayət etmirlər".

Ekspert diqqətə çatdırıb ki, təkcə şəhər daxilində deyil, bölgələrdə də şagirdlər qidadan zəhərlənirlər:

"Əlbəttə ki, bu qida təhlükəsizliyinə əməl edilməsində problemlər var. Məsələn, kimsə evdən qida gətirə bilər. Bu da zəhərlənməyə səbəb olur. Eyni zamanda düzgün qidalanma məsələsinə əməl olunmalıdır. Məktəblərimizdəki bufetlərdə müvafiq qanunvericiliklə qadağan edilən qidalardan istifadə edilməməlidir. Yağda qızardılmış "peraşki" kimi məhsulların satışı yolverilməzdir. Standartlaşdırılma və epidemiologiya qurumu bu qidaları qadağan edib. Məktəb bufetlərində onlara icazə verilmir. Uşaqlar arasında çəki artımı kimi problemlərə rast gəlinir. AQTA-nın reallaşdıracağı layihə mövcud problemlərin aradan qaldırılmasına müsbət təsirini göstərəcək".

Sücayət Mehti

Şəkər xəstələrinə dərman növbəsində zülm yaşadırlar

Halbuki, onları sistemli şəkildə zəng edib, çağırmaq olar

Ötən gün sosial şəbəkələrdə şəkərli diabetdən əziyyət çəkən insanların pulsuz dərman almaq üçün xəstəxana qarşısında kütləvi növbəsini əks etdirən görüntülər yayılıb. Həmin görüntülər Quba Rayon Mərkəzi Xəstəxanasının qarşısında çəkilib. Kadrlardan da aydın görünür ki, xəstələr dərmanları növbəli şəkildə ala bilmir. Yayılan görüntülərlə bağlı Quba RMX-dən bildirilib ki, şəkər xəstələri üçün nəzərdə tutulan dərman vasitələri mərhələli şəkildə verilir:

"Vətəndaşların müraciəti eyni günə təsadüf etdiyindən dərman vasitəsinin verilməsində sıxlıq müşahidə olunub. Qısa müddət ərzində növbəlilik prinsipi gözlənilməklə bütün şəkər xəstələrinə dərmanların verilməsi reallaşdırılacaq".

Şəkərli diabet xəstələrinə dərmanların verilməsində bəzən belə axsaqlıqlara rast gəlirik. Amma nəzərə almaq lazımdır ki, o insanlar dərman əldə etmək üçün saatlarla növbə gözləyirlər. Əsəb keçirirlər. Nəticədə keçirdikləri gərginlik onların ziyanına işləyir.

Tibb və fəlsəfə elmləri doktoru, həkim Şəmsiyyə Namazlı "Şərq"ə açıqlamasında bildirib ki, şəkər, vərəm kimi xəstəliklər sosial yönümlü məsələlərdir:

"Onsuz da bu xəstəlik insanların sinir sistemini çox gərgin vəziyyətə salır. Antipatiyalar, neyropatiyalar yaranır"

"Bu sahədən olan xəstələrə diqqət göstərilməsi hər bir dövlətin sosial siyasətinin prioritet istiqamətlərindəndir. Şəkər xəstəliyi uzun müddət müalicə tələb edir. Hətta insana bir ömür yoldaş olur. Xəstəliklərin müşahidəsi, müalicəsi uzunmüddətli olduğu üçün dövlət müəyyən qədər pasiyentləri dərmanla təmin edir. Statistikaya nəzər salsaq, şəkərli diabet xəstəliyinin sayının günbəgün artdığını görəcəyik. Ona görə də növbədə dayananlar dispanser qeydiyyatına düşmək üçün xəstələrin də sayı çoxalır. Dərmanların verilməsi də gecikir, sıra yaranır. Əslində bunları mərhələli şəkildə etmək mümkündür. Poliklinikalar da sahələr üzrə bölünür. Hər sahənin həkimi, tibb bacısı, qeydiyyatçısı var. Həm həkimin rahatlığı, həm də xəstənin əsəblərinin gərilməməsi üçün onları sistemli şəkildə zəng edib, çağırmaq olar. Məsələn, Tovuz rayonunda şəkər xəstələri çox əziyyət çəkir. Dərmanlar düzgün verilmir. Verilirsə də, yarımçıq təchiz edilir. Onsuz da bu xəstəlik insanların sinir sistemini çox gərgin vəziyyətə salır. Antipatiyalar, neyropatiyalar yaranır. Onlar həssas qrupa daxildirlər. Təbii ki, hər hansı həbi almaq üçün saatlarla növbədə durmaq xəstələrə mənfi təsir edəcək. Xəstədə şəkər qalxır, yaxud dərmanın içilməsi saatında sıra gözləyir. Əslində bu, problemli məsələ deyil. İstəsələr, qaydasına qoya bilərlər. Xəstələri sistemli şəkildə dəvət etmək mümkündür".

Sücayət Mehti

Azərbaycanda yoluxma sayı azalıb

Yaxın vaxtlarda məhdudiyyətləri aradan qaldırmaq olar

Gürcüstan hökuməti martın 1-dən etibarən sərhədlərini bütün ölkələr üçün açır.

Bu barədə Gürcüstan hökumətinin Dövlət Qurumlararası Koordinasiya Şurası qərar qəbul edib.

Qərara əsasən, martın 1-dən etibarən xarici ölkə vətəndaşları Gürcüstana gələrkən ya iki doza ilə peyvənd olunmalarına dair sənədi, ya da son 72 saat ərzində verdikləri PCR testinin neqativ nəticəsini təqdim etməlidirlər. Qeyd edək ki, Gürcüstan hökuməti koronavirus pandemiyası səbəbindən 67 ölkə üçün sərhədlərini bağlamışdı. Hökumət koronavirusla əlaqədar tətbiq olunan daha bir neçə qadağanı da ləğv edib. Son günlər Azərbaycanda da yoluxma hallarının sayı azalıb. Bu səbəbdən cəmiyyətdə karantin qadalarının yumşaldılması və tamamilə aradan qaldırılması ilə bağlı gözləntilər var. **İnfeksionist Mərdan Əliyev bu barədə "Şərq"ə açıqlamasında yaxın vaxtda ölkəmizdə də yumşaldılmalara gediləcəyinə inandığını bildirib.** "Onsuz da məhdudiyyətlər kifayət qədər aradan qalxıb. Yəqin ki, tam aradan qaldırılması məsələsinə də yaxın vaxtlarda baxılacaq. Çünki "Omikron" ştammında yoluxma sayı çox olmasına baxmayaraq, xəstəxana şəraiti tələb olunan xəstələrin sayı az olur. Ölüm halları da azdır. Eyni zamanda xəstəxanalarda və reanimasiyalarda kifayət qədər yerlər var. Ona görə də məhdudiyyətlərin saxlanılmasına ehtiyac yoxdur".

Sənan İsmayıl

Elan

"Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası, Xətai rayon, X Məmmədova küç. bina 1, blok 1, mərtəbə 19, mənzil 120-də yaşayan Rəcəbova Kubra Mahmud qızının adına 30.03.2007-ci il tarixli 4791 saylı alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və **VİZAj** (3 AY)
-KİŞİ və **QADIN BƏRBƏRİ** (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

Azercell-dən Ukraynadakı abunəçilərinə dəstək!

Ukraynadakı hərbi vəziyyətlə əlaqədar Azərbaycanın lider mobil operatoru "Azercell Telekom" MMC bu ölkədə olan bütün abunəçilərin ailə və yaxınları ilə kəsintisiz rabitə əlaqəsini təmin etmək məqsədilə onların nömrələrinin balansına 50 AZN həcmində vəsait yükləyib.

Abunəçilərə bu haqda müvafiq məzmunlu SMS göndərilib. Balansartırma həm fakturalı, həm fakturasız xətt sistemlərinə aid bütün nömrələri əhatə edir.

Qeyd edək ki, Azercell-in Çağrı Mərkəzi (ümumi əlaqə nömrəsi *1111, fakturasız xətt abunəçiləri üçün (012) 490 49 49, fakturalı xətt abunəçiləri üçün (012) 490 52 52) və Online Dəstək xidməti 24 saat ərzində abunəçilərin xidmətindədir. Əlavə olaraq "Kabinetim" tətbiqi üzərindən də müraciət etmək mümkündür:
https://kabinetim.azercell.com/my/login

Azercell şirkəti abunəçilərinə diqqətli olmağı, hamıya sülh və əmin-amanlıq diləyir.

Bakcell-dən Ukraynadakı abunəçilərinə dəstək

Bakcell şirkəti Ukraynadakı vəziyyətlə əlaqədar olaraq ölkədə rominqdə olan abunəçilərin nömrələrinin balansını artırıb.

Belə ki, hazırda Ukraynada olan abunəçilərin ailələri və yaxınları ilə kəsintisiz rabitə əlaqəsini təmin etmək məqsədilə şirkət tərəfindən onların nömrələrinin balansına 100 AZN məbləğində pul vəsaiti yüklənib.

"Nar"ın əsas prioriteti müştəriləri keyfiyyətli xidmətlə təmin etməkdir

"Müştərilərlə ünsiyyətdə olduğumuz hər yerdə - mağazalarımızda, rəqəmsal tətbiqdə və sosial media platformalarında onlara keyfiyyətli xidmət göstərməliyik". Bunu "Azerfon"un Baş icraçı direktoru Qunnar Panke ARB telekanalına müsahibəsində bildirib. Onun sözlərinə görə, son 3 il ərzində müştəri məmnuniyyəti indeksinə görə "Nar"ın lider olması, eyni zamanda bütün göstəricilər və müştərilərdən gələn rəylər onun doğru yolda addımladığını sübut edir.

Mobil operatorun uzun müddət ərzində müştərilərə göstərdiyi keyfiyyətli xidməti qoruduğunu deyən Qunnar Panke əlavə edib ki, burada yüksək sürətli internet, kəsintisiz zəng ximdətləri nəzərdə tutulur: "Nar" ölkədəki bütün mağazalarını yeniləməkdədir və sosial mediada ünvanlanan suallara operativ cavab verməkdədir. Biz müştərilərimiz üçün güvənli tərəfdaş olmağı hədəfləmişik. Müştərilərimizi hər zaman dinləyir, problemlərinin ən optimal həll yolunu təqdim edirik. Düşünürəm ki, biz çox uğurlu olsaq da, hələ də gediləcək yolumuz var və bu istiqamətdə daha da inkişaf etməyi planlaşdırırıq".

Qeyd edək ki, müsahibədə Baş icraçı direktor mobil operatorlar arasındakı rəqabətdən, Azərbaycandakı biznes mühitindən, turizm potensialından, eləcə də "Nar"ın strategiyasından və qarşıdakı hədəflərindən də danışıb.

Qanun qarşısında hamı bərabərdir

Rəqsanə Manaf Ağayevin həbsinə haqq qazandırdı

"Bilirik ki, Manaf Ağayev Füzuli rayonundandır və torpaqlarımız işğal tapdağından azad olunub. M.Ağayev də ola bilsin, icazəsiz gedib. Allah qapısını açsın deyək. Manaf yaxşı oğlandır. Ona da, ailəsinə də çox böyük hörmətim var".

"Şərq"in məlumatına görə, bu sözləri müğənni Rəqsanə İsmayılova "İnstagram"da canlı yayım açarkən deyib.

O, Füzuliyə qanunsuz səfər edib 15 sutka həbs cəzası alan həmkarı haqqında bunları əlavə edib: "Qanunlar istər Rəqsanə, istərsə də digər vətəndaşlar üçün keçərlidir. Hər birimiz çətin gündə bir-birimizə dəstək verməliyik.

Əgər dövlət tərəfindən ora girmək qadağası varsa, icazə almalıyıq. Bizi tərifləyən insanlar başımıza nəsə gələndə başlayırlar haqqımızda pis şərhlər yazırlar. Manafın bu addımı qanunla yoluna qoyulmasaydı, sabah insanlar deyəcəkdi müğənni getdi, gəldi, özünü göstərdi, ona heç nə etmədilər".

Aygün

"Bu cür hadisəni ictimailəşdirmək cinayətdir"

Nura Zaurun verilişini tənqid edib

"Bizimləsən" verlişində neçə vaxtdır bir mövzu uzana uzana gedir. Deməli, bir qadın doğub atıb başqa bir qadının üstünə. 19 il axtarmayıb. Həmin qadın da o uşağı öz uşağı kimi böyüdüb, uşaq da bilmir ki atılıb. İndi verlişdə deyirlər ki yox, uşaq bilməlidir, anasını tanımalıdır".

Bu sözləri müğənni Nura Suri sosial şəbəkədə yazıb. Sənətçi "Bizimləsən" verilişində baş verən hadisəyə münasibət bildirib. O qeyd edib ki, bu cür hadisəni ictimailəşdirmək cinayətdir:

"İnsanlar, bu, nə münasibətdir? Cinayətdir bu məsələni açmaq (Maddə 175- övladlığa götürmə sirrini yayma), insafsızlıqdır hətta. Belə hadisələri görüb heç kəs atılan uşaqları övladlığa götürməz, riskə getməz. Olmaz bu məsələni açmaq, uzatmaq. Uşaq böyütmək asandır? Onu böyüdən qadının əziyyətinə hörmət qoyun. Olmaz belə. Uşaqlarını atan insanların 2-3 ildən sonra səhvlərini anlamasını başa düşmək olar. 19 ildən sonra isə başa düşüləsi heç nə yoxdur".

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 482**

Luçesku da hiddətlənib

"Ümid edirəm ki, bu beyinsizlər müharibəni dayandıracaq"

Rusiyanın Ukraynaya hərbi təcavüzünü dünya futbol tarixinə adını yazdırmış məşhur məşqçi Mirça Luçesku da pisləyib.

Türkiyənin NTV (Spor) kanalının məlumatına görə, hazırda Ukraynada yaşayan Luçesku təpkisini "ümid edirəm ki, bu beyinsizlər müharibəni dayandıracaq", sözləri ilə ifadə edib. Hazırda "Dinamo" (Kiyev) futbol komandasının baş məşqçisi olan Mirça Luçesku "Qorxaq deyiləm. Və Kiyevi tərk etməyəcəyəm. Belə bir savaşın başlana biləcəyini əsla düşünməmişdim", söyləyib. Xəbərdə bildirilir ki, Ukraynada fevralın 25-də əsas liqanın oyunları başlamalıydı. Lakin Ukrayna Futbol Federasiyası hərbi təcavüzlə əlaqədar bütün oyunları 30 gün müddətinə təxirə salıb.

Məlahət

İzləyicilərinə 45 minlik krem almağı təklif etdi, tənqid olundu

"Doktorlar" serialı ilə tanınan aktrisa Yasemin Özilhan bu dəfə sosial media hesabı üzərindən etdiyi reklama görə tənqid olunub.

Axşam.az xəbər verir ki, aktrisa instaqram hesabında izləyicilərə dəyəri 45 min lirə (təxminən 5 372 manat) olan kremi almağı və istifadə etməyi təklif edib. Bundan sonra tənqid atəşinə tuş gələn Yasemin paylaşımına aydınlıq gətirib. O, kremin bu qədər bahalı olduğunu bilmədiyini iddia edib:

"Sizin sayənizdə 45 min lirəyə krem olduğunu öyrəndim. Eyni marka ola bilər, amma çeşitləri fərqlidir. 45 minlik bir məhsulu nə təklif edərəm, nə də özüm istifadə edərəm".

Məşhur aktrisa ana oldu

Aktrisa Cennifer Laurens ilk övladını dünyaya gətirib.

Axşam.az xəbər verir ki, körpənin doğum tarixi və cinsiyyəti açıqlanmayıb.

Qeyd edək ki, 31 yaşlı Cennifer Kuk Maroni ilə evlidir.

Beren Saat dəyişdi



Türkiyəli aktrisa Beren Saat imicində dəyişiklik edib.

Aktrisa tünd qəhvəyi saçlarını açıq rəngə boyatdırıb və kəkil kəsdirib.

Sosial şəbəkə izləyiciləri onun yeni halını bəyəndiklərini qeyd ediblər.

Qeyd edək ki, B.Saat müğənni Kenan Doğulu ilə evlidir.

Ayrılıqlarının sayı-hesabı bilinmir

Damla Ersubaşı şəxsi həyatı ilə gündəmdən düşmür

"Sehirli annem" serialında "Tuğçe" obrazıyla tanınan aktrisa Damla Ersubaşı şəxsi həyatı ilə gündəmdən düşmür.

O, yenidən ailə həyatı qurmaq istədiyi keçmiş həyat yoldaşı Mustafa Can Keserlə yenidən ayrılıb. Damla Mustafa ilə olan bütün fotolarını sosial media hesabından silərək xəbərləri doğrulayıb. Onların hansı səbəbdən bu qərarı aldığı açıqlanmayıb.

Qeyd edək ki, aktrisa şiddətə və xəyanətə məruz qaldığı üçün evliliyini sonlandırmışdı. Cütlüyün bu evlilikdən Zehra, Zeynep Nisa adlı iki qızı var.

18 illik ərindən boşandı

"Yeşilçam" ulduzu Müge Akyamaç 18 illik evliliyini sonlandırıb.

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, aktrisa həyat yoldaşı Sedat Uğurdan boşanıb. Cütlüyün hansı səbəbdən ayrıldığı isə məlum deyil.

Qeyd edək ki, M.Akyamaç "Milyarder", "Gurbetçi Şaban", "Şaban Pabucu yarım" kimi sevilən filmlərdə rol alıb.

Nəhəng asteroid Yerə yaxınlaşır

Bir qitəni yox edəcək böyüklükdədir!

İsrailin Veeizmann Elmi-tədqiqat İnstitutunun təhsil qolu olan Davidson Elmi-Tədqiqat İnstitutunun araşdırmasına görə, ölçüsü 140 metrdən böyük bir asteroid Yer planeti ilə toqquşarsa, ilk atom bombasının təsirindən yaranan enerjidən ən az 1000 dəfə artıq enerjinin ortaya çıxmasına səbəb olacaq.

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, NASA-nın asteroid müşahidəçisi hazırda 400 metrdən böyük ölçüdə asteroidin dünyaya doğru irəlilədiyini bildirib. Amma NASA dünya əhalisinin həm də sakitləşdirir: "qorxmayın, Yer planetindən yan keçəcək". Planetimizə doğru istiqamətlənmiş asteroid 455176 (1999 VF22) rəqəmləri ilə nömrələnib. Asteroidin təxmini ölçüləri 190-la 430 metr arasındadır. Lakin hətta ən kiçik asteroidin də Yer planeti üçün böyük təhlükə daşıdığı məlumdur. Alimlər bildirir ki, ölçüləri 300 metrdən böyük olan asteroidlər böyük bir qitəni məhv etmək gücündədir. 1908-ci ildə Tunquska bölgəsində (Sibir) yerə düşmüş asteroidin böyüklüyü 190 metr genişliyində imiş. Bu, indiyədək dünyada meydana gəlmiş ən böyük partlayış hesab olunur. NASA-nın açıqlamasında qeyd edilir ki, planetə yaxınlaşmaqda olan asteroid dünyamızdan 5,36 milyon kilometr aralı məsafədə keçəcək və Yer planetinə toxunmayacaq (Planetimizə toxunan əllər varkən, asteroidin bizlərə rəhmi gəlir M.R.). Ağlasığmaz məsafədə ötüb keçəcək asteroidi görmək mümkündürmü? Alimlər bildirir ki, xüsusi teleskopla mümkündür. Alimlər bəşəriyyəti baş verə biləcək hər hansı fəlakətə hazırlıqlı olmağa çağırır. Asteroid o qədər sakit irəliləyir ki, sanki hərəkətsizdir. Əslində hərəkətdədir. Qeyd edilir ki, göy cisimlərinin planetlə toqquşması nəticəsində yaşanacaq dəhşətli fəlakətlər dəfələrlə Hollivud filmlərinə senari olub. 2019-cu ildə bir asteroid Yer planetinə 70 min kilometrə qədər yaxınlaşmışdı. Asteroid planetə yaxınlaşmasına 24 saat qalmış fərq edilmişdi. Dünyamızın bəxti gətirir ki, asteroidlərin sürəti getdikcə azalır və onlar Yer planetinə yaxınlaşan zaman (bu "yaxınlaşma" da milyon kilometrlərlə ölçülür) sürətləri xeyli yavaşıyır.

Məlahət





Ağırlaşıb ölənlər "Omikron"dan ölənlər deyil

Professorun sözlərinə görə, itkilər "Delta" ştammı ilə bağlıdır

"Omikron"un adi qrip kimi keçməsi və xəstəni öldürməməsi pandemiyanı zəiflətsə də, hər gün Azərbaycanda 20-27 nəfər koviddən vəfat edərək ölənlər statistikasına düşür. Bəs onları öldürən nədir?

Pulmonoloq, professor Əlizamin Sadiqov bildirib ki, ölkədə "Omikron"la yanaşı klassik və amansız "Kovid" və "Delta" ştammları hələ də dövriyyədədir. Onlar aradan getməyib.

"Ağırlaşıb ölənlər "Omikron"a yox, "Kovid"in birinci variantı və "Delta"ya yoluxanlardır. Onlar həmişəki kimi ağciyərləri 50-70 faiz zədələmə və Sitoken fırtınası yaradır.

"Delta" və klassik "Kovid" hələ bir müddət aramızda olacaq, bundan qaçış yoxdur, bütün yoluxanların 1 faizi qədər də itki olacaq. Bu olmalıdır.

Amma mən "Omikron"a yoluxub, ağciyərlərində buzlu şüşə olub, ciddi problem yaşayan xəstə görmədim. Yoluxanlar arasında hər gün 100-200 nəfər "Delta"ya yoluxur. Ölüm "Omikron"la əlaqədar deyil. (medicina.az)

O variantların yox olması üçün yeganə çıxış yolumuz vaksinasiyanı 90 faizə çatdırmaqdır.

Ölüm və hospitalizasiyanı azaldan bəzi dərmanlar var, Molnupiravir yeni istehsal olunmuş və çox effektivdir. Onlardan biri Azərbaycanda hələ yoxdur. Bunlar nisbətən ölüm faizini azaldır.

Əgər "Omikron" zəif olmasaydı, bugünkü ölüm göstəriciləri ən azı 2-3 dəfə yüksək olmalıydı. Bu qədər az olmasının səbəbi elə "Omikron"dur".

3 yaşına qədər ana qucağında olmaq istəmirsə

Uşaqlarda autizmin ən çox rast gəlinən əlamətləri açıqlandı



Autizm spektr pozuntuları üçün ümumi xarakter daşıyan əlamətlər: məhdud maraqlar və davranış, təkrarlanmalar, nitqdə gerilik, hiperaktivlik, əhval-ruhiyyənin qeyri stabilliyi və s.

Trend xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Gülnarə Musabəyova deyib.

Onun sözlərinə görə, valideynlər uşaq doğulduğu andan 3 yaşına qədər ana qucağında olmaq istəməməsi, anası və digər yaxın adamlar ilə əlaqə yaratmaması, ətrafda baş verən hadisələrə marağının olmaması, ailə üzvlərindən birinə güclü bağlılığına diqqət yetirilməlidi.

"3 yaşdan yuxarı isə digər insanların emosiyalarını çətin anlamaları, dostluq münasibətləri bağlaya bilməməsi, öz təşəbbüsü ilə əlaqə yaratmaması, komanda oyunlarında iştirak edə bilməməsi, ətrafdakılara qarşı tənhalıq nümayişi valideynləri narahat etməlidir", - deyə o bildirib.

Heyrətamiz görüntülər

Londonda eramızdan əvvələ aid mozaika tapılıb

Londonda eramızdan əvvəl II əsrin sonu III əsrin əvvəllərinə aid Roma mozaikası tapılıb.

Azərtac xəbər verir ki, London Arxeologiya Muzeyinin arxeoloqları Londonda son 50 ildə ən böyük qorunub saxlanılan Roma mozaikasının aşkar edildiyini açıqlayıblar. Rəngarəng çiçəklər və həndəsi naxışları əks etdirən heyrətamiz Roma mozaikası mütəxəssislərin fikrincə, bir vaxtlar Roma yeməkxanasının döşəməsi olub.

Hazırda qazıntı işləri aparılan ərazidən tapılanlar göstərir ki, bu, çoxsaylı otaq və dəhlizlərdən ibarət çox böyük kompleks olub.

Roma Londonu (Londinium) eramızdan əvvəl 47-ci ildə Temza çayı üzərində inşa etdirmişdi. Eramızın 1-ci əsrinin sonunda Londinium sürətlə genişləndi və əyalət mərkəzi olaraq Camulodunumu (Kolçester) əvəz edərək Roma Britaniyasının ən böyük şəhərlərindən biri oldu. Eramızın 2-ci əsrində Londinium təqribən 45-60 min əhalisi olan şəhərə çevrildi. Şəhərdə böyük forum və bazilika (Alp dağlarının şimalında Roma İmperiyasının ən böyüklərindən biri), bir neçə hamam kompleksi və məbədlər, amfiteatr və bir çox şəhərciklər fəaliyyət göstərib.